# QARABAĞ AZƏRBAYCANDIR!

## Gələcək nəsillərə örnək olan BÖYÜK ZİYALI



3

# ZƏFƏR GÜNÜ

- Xalqımızın birliyi, gücü ilə milli qürurumuzun təntənəsi



2

SƏS
№ 203 (6644) 4 noyabr 2022-ci il. Qiymətı 60 qəpik

# İranda etirazlar: yalan kim, yaman kim?



ABŞ Tehranın BMT-nin Qadının Statusu Komissiyasından çıxarılmasını istəyir

14

## Tahir Budaqov: "Azərbaycan postkonflikt dövründə məqsədyönlü quruculuq siyasəti həyata keçirir"



8

## Repetitorlar təhsilimizdə hansı problemlər yaradır?



12

## Məktəbə, yoxsa alverə?



13



## Xərçəngin kəşf edilməmiş dərmanı tapıldı

## Gələn il bütün müavinətlərdə artım olacaq



## Azad edilmiş bəzi qəsəbə və kəndlərin baş planları yekunlaşır



# ZƏFƏR GÜNÜ

## - Xalqımızın birliyi, gücü ilə milli qürurumuzun təntənəsi

## PREZİDENT İLHAM ƏLİYEV:

"Biz xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir"





### Rəsmi xronika

Prezident İlham Əliyev akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Arif Vasif oğlu Səmədovun Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Elnur Əli oğlu Əliyevin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

**Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 20-də xalqa müraciətində deyib: "Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq".**

### BİZİM GÜCÜMÜZ XALQ-İQTİDAR BİRLİYİNDƏDİR

"Ermənistan diktatoru bunkerdə otura-otura özünü tamamilə dünyadan, öz xalqından təcrid edib, Azərbaycanda xalq-iqtidar birliyi. Bax, budur fərq. Budur bizim gücümüz. Bizim gücümüz birliyimizdədir". Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 20-də xalqa müraciətində deyib.Dövlətimizin başçısı deyib: "Son 3-4 il ərzində mən öz çıxışlarımda dəfələrlə demişdim ki, dünya dəyişir, münasibətlər dəyişir, beynəlxalq hüquq işləmir, güc amili önə çıxır, "kim güclüdür o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Bütün bunları mənim çıxışlarımda görmək olar. Çünki mən beynəlxalq vəziyyəti düzgün təhlil etmişəm. Demək istəmirəm ki, biz də bu yolla gedək. Yox. Bizim yolumuz ədalət yoludur və beynəlxalq hüquq yoludur. Biz beynəlxalq hüququn kənarında bir iş görməmişik. Ancaq demişəm ki, güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq və hazırlıq işləri gedirdi, bütün bu illər ərzində, həm iqtisadi sahədə, həm beynəlxalq münasibətlər sahəsində, ilk növbədə, ordu quruculuğu sahəsində".Prezident qeyd edib ki, bu gücü topladıq, lazım olan anda düşmənin başını vurub əzdik. Elə əzdik ki, onu əbədi yadda saxlayacaq. Azərbaycan xalqı müzəffər xalqdır. Azərbaycan Ordusu müzəffər ordudur. Biz döyüş meydanında qələbə qazanmışıq, siyasi müstəvidə qələbə qazanmışıq, torpaqlarımızı işğalçılardan azad etmişik.Bəli, beynəlxalq aləmə ədalətin, haqqın öz gücü hesabına bərpa olmasının mümkünlüyünü nümayiş etdirən xalqımız öz rəhbərinin illərlə yürütdüyü müdrik siyasətin məntiqi nəticəsini gördü. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Əlbəttə, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü.

### "DƏMİR YUMRUQ" SİYASƏTİ TARİXİ ZƏFƏRİ TEZLƏŞDİRDİ

Bəli, 30 illik torpaq həsrətinə 44 gün ərzində Ali Baş Komandanımız İlham Əliyev cənablarının "Dəmir yumruq" siyasəti ilə rəşadətli əsgər və zabitlərimizin şücaəti tarixi zəfəri tezləşdirdi. Belə ki, noyabrın 8-də Şuşa alındı. Noyabrın 9-da isə 70-dən artıq kənd, 1 qəsəbə, 8 strateji yüksəklik düşmən işğalından azad edildi. Düşmənin digər hərbi tör-töküntüləri isə yarımmühasirə vəziyyətinə düşdü.Belə vəiyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Və noyabrın 10-da Ermənistan "ağ bayraq" qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin 1 dekabra kimi daha 3 rayonun - Kəlbəcərin, Ağdamın və Laçının müharibəsiz və deməli, qansız, şəhidsiz qaytarılmasını nəzərdə tutan birgə bəyanatı imzalaması hərb tarixinə ZƏFƏR HƏFTƏSİ kimi həkk olundu. Bəli, Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Bu, "Dəmir yumruq" siyasətinin tarixi zəfər gününü tezləşdirdiyi, Qarabağa qovuşduğumuz tarix gün, böyük qələbə günü, şanlı tariximizə daxil olan Zəfər günüdür! Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu gündür. Bu, Prezident İlham Əliyevin 8 noyabrın Zəfər Günü kimi qeyd edilməsi ilə bağlı sərəncamı xalqımızın və rəşadətli Ordumuzun qazandığı böyük tarixi Zəfərdir. Bu zəfər Azərbaycan xalqının tarixi nailiyyəti, əbədi fəxarətidir. Bu, böyük hərbi zəfərin və müdrik diplomatiyanın nəticəsidir. Azərbaycan öz problemini təkbaşına həll edərək, hərbi gücünü və diplomatik imkanlarını bütün dünyaya göstərdi. Bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının milli qürurumuzun təntənəsinə çevrilən və ikinci ilini qeyd etdiyimiz 8 noyabr Zəfər Günü ilə bağlı sərəncamı bu tarixi günü əbədiləşdirdi. Bu gün milli qürurumuzun təntənəsi olan Zəfər Günü ilə bağlı Azərbaycan xalqı, bütün türk dünyası - Zəfər Günün mübarək! Zəfər günün mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır!

***RƏFİQƏ HÜSEYNOVA***

# Gələcək nəsillərə örnək olan BÖYÜK ZİYALI



## Dövlət başçısının Sərəncamı ilə akademik Zərifə Əliyevanın 100 illik yubileyi qeyd olunacaq

Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyeva zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatları, qazandığı nailiyyətləri, yaratdığı fundamental əsərləri ilə şöhrət qazanmış böyük ziyalıdır. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Belə bir alimin - akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, ölkəmizdə tibb elminin inkişafında xüsusi xidmətlər göstərmiş görkəmli oftalmoloq alim Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə tədbirlər planı hazırlayıb həyata keçirəcək. Sənəddə qeyd olunur ki, akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası, məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Təsadüfi deyildir ki, onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. Kainat qədər geniş qəlbindən və zəkasından çağlayan ilahi nuru onu tanıyanların mənəvi dünyasına daim nur saçır.

### OFTALMOLOGİYA ELMİNİN AKTUAL MƏSƏLƏLƏRİNƏ TÖHFƏLƏR VERƏN ALİM

Beynəlxalq aləmdə cəm olunaraq bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycanın səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli, zəngindir. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda ona qarşı təsirli müalicə üsulları isə yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apradığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

1968-ci ildən başlayaraq, Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Eyni zamanda, o, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirmişdir. Zərifə xanım bu problem üzərində iş apararkən çox vaxt bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

Elmi tədqiqataların nəticəsi olaraq Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail oldu. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü gördü. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

### OFTALMOLOGİYANIN MİRVARİSİ

Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir.

Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir.

Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür, onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbüssündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Tibb elmləri doktoru Zəhra Əliyevanın, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professsor A.N. Dobromislovun və başqalarının yazılarında alimin şərəfli, zəngin elmi fəaliyyətinin nailiyyətərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb. Moskva oftalmoloji məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır.

### ZƏMANƏMİZİN SEÇİLƏN NƏCİB XANIMI

Zərifə Əliyeva həkimlik etikası ilə bir nümunə idi. Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verirdi.

Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu vurğulayırlar. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq mülayimliyi ilə, həssaslığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çalarlı bir ömrünü yazılı salnamələrdə əks etdirdi. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva, Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Azərbaycan tarixinə məxsusi dəyələri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri onu zəmanəmizin seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konflikt quruculuğu modeli" mövzusunda konfrans keçirilib








**Noyabrın 3-də Gülüstan Sarayında Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qələbənin ikinci ildönümü - Zəfər Gününə həsr olunmuş "Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konflikt quruculuğu modeli" mövzusunda konfrans keçirilib.**

Konfransda açılış nitqi söyləyən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, artıq ikinci ildönümünü qeyd etdiyimiz Zəfər Günü çoxəsrlik tariximizin şanlı səhifəsi, xalqımızın qürur mənbəyi və Azərbaycan dövlətinin qüdrətinin ifadəsidir. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün cəbhələrdə - hərb meydanında, beynəlxalq informasiya platformasında və diplomatiya müstəvisində möhtəşəm qələbə qazanaraq tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına müvəffəq oldu. Tahir Budaqov vurğulayıb ki, son 200 illik tariximizdə bənzəri olmayan bu Qələbənin qazanılması, mürəkkəb geosiyasi şəraitdə torpaqlarımızın işğaldan azad edilməsi milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara cavab verən məqsədyönlü siyasətin real nəticəsidir.

YAP Sədrinin müavini qeyd edib ki, ümummilli lider Heydər Əliyevin siyasi kursunu dövrün tələblərinə uyğun olaraq keyfiyyətcə yeni müstəvidə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə atılan addımlar Azərbaycanın milli gücünün artmasını, strateji hədəflərə və qələbəyə doğru əmin addımlarla irəliləməsini təmin etdi: "Xüsusilə də, dövlət başçısının tərəqqiyə və Zəfərə hədəflənən məqsədyönlü siyasəti sayəsində Azərbaycanın iqtisadi gücü artırıldı, qüdrətli və modern ordu quruculuğuna nail olundu, məharətli diplomatik addımlar nəticəsində ölkəmizin regional və beynəlxalq təsir imkanları genişləndi. Nəhayət, Azərbaycan hərbi-siyasi arenada möhtəşəm qələbə qazanaraq BMT-nin uzun müddət kağız üzərində qalmış qətnamələrinin icrasını öz gücü ilə təmin etdi. Zaman-zaman şiddətli təzyiqlərə məruz qalmasına baxmayaraq, Azərbaycan beynəlxalq aləmdə bir sıra siyasi stereotipləri dağıtdı, ikili standartlar yanaşmasını iflasa uğradaraq regionda yeni geostrateji reallıqlar yaratdı. Bu reallıqlar fonunda yeni çağırışlarla qarşı-qarşıya olan Azərbaycan hərb meydanında qazanılmış Zəfəri regional və beynəlxalq siyasət arenasında davamlı prosesə çevirmək və Qələbəni diplomatiya meydanında, quruculuq müstəvisində möhkəmləndirmək üçün mühüm addımlar atır, məqsədyönlü fəaliyyət həyata keçirir. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan postkonflikt dövrünün quruculuq modelini yaradır".

Tahir Budaqov vurğulayıb ki, bu gün işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür: "Yaşayış məntəqələri müasir konsepsiyalar əsasında qurulur, modern beynəlxalq hava limanları inşa edilir, nəhəng infrastruktur yaradılır və yeni tərəfdaşlıq əlaqələri formalaşdırılır. Bütün bunlar Azərbaycanın həm sosial-iqtisadi inkişafına, həm də regionda mövqelərinin möhkəmlənməsinə xidmət edir".

YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, postkonflikt dövrünün quruculuq modelinin daha bir mühüm tərkib hissəsi dayanıqlı sülh və təhlükəsizlik siyasətidir: "Bu gün regionda sülh və etimad quruculuğunun həyata keçirilməsi xüsusi diqqət mərkəzindədir. Azərbaycanın yaratdığı reallıqlar əsasında sülh gündəliyi artıq müəyyənləşib. Sülh müqaviləsinin imzalanması, kommunikasiyaların bərpası, sərhədlərin delimitasiyası və demarkasiyası bu strateji gündəliyin mühüm tərkib hissəsidir. Beş baza prinsipi əsasında müvafiq təklifləri verən, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla öz üzərinə düşən öhdəlikləri tam və zamanında yerinə yetirən qalib Azərbaycan önəmli təşəbbüslər irəli sürür. Eyni zamanda, hazırda strateji prioritetlərdən və mühüm hədəflərdən biri Cənubi Qafqaz regionunda yeni işbirliyi platformasının qurulmasıdır. Xüsusilə də, Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş və çoxşaxəli əməkdaşlıq imkanlarının formalaşdırılması deməkdir. Bir sözlə, postkonflikt dövründə Azərbaycanın quruculuq modeli və məqsədyönlü siyasəti regionu işbirliyi və inteqrasiya məkanına çevirir. Respublikamız Avropa ilə Asiyanın qovşağında - Cənubi Qafqazda yeni nizam və siyasi konfiqurasiya formalaşdırır. Bu isə həm bölgə xalqları və dövlətləri, həm də yeni reallıqlar fonunda tərəfdaşlıqda maraqlı olan ölkələr üçün strateji fürsət, tarixi şans, rifah, firavanlıq və inkişaf deməkdir".

"Nəticə etibarilə, postkonflikt dövründə Azərbaycanın quruculuq konsepsiyası nümunəvi model kimi beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. XXI əsrin müharibəsini aparmış Azərbaycanın hərb modelinin dünya miqyasında xüsusi tədqiq olunduğu kimi, postkonlifkt dövründə quruculuq təcrübəsinin də geniş öyrəniləcəyinə şübhə yoxdur.

Tariximizin bu şanlı dövründə yaşayıb yaratmaq hər bir azərbaycanlı üçün hədsiz xoşbəxtliklə bərabər həm də böyük məsuliyyətdir və hər birinizə dövlətimiz və xalqımız naminə müqəddəs amallara doğru bu çətin, lakin işıqlı yolda möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə şərəflə addımlamağı arzu edirəm" ,- deyə Tahir Budaqov vurğulayıb.

Konfransda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı "Postkonflikt quruculuğu modeli" mövzusunda çıxış edib. O bildirib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda regenerasiya və reinteqrasiya dövrünü yaşayır. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi altında postkonflikt quruculuğunun əsas istiqamətləri müəyyənləşdirilib:

*Ardı Səh. 5*

# “Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konflikt quruculuğu modeli” mövzusunda konfrans keçirilib

**Əvvəli Səh. 4**

”Bunlardan birincisi, Azərbaycanın hərb meydanında möhtəşəm qələbəsinin digər, o cümlədən siyasi və diplomatik müstəvilərdə möhkəmləndirilməsidir. İkincisi, şəhid ailələri və müharibə iştirakçılarının sosial müdafiəsinin təşkilidir. Üçüncüsü, işğaldan azad edilmiş ərazilər üzrə yeni dövlət idarəetmə modelinin tətbiqi, dördüncüsü isə, ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsidir. Beşinci istiqamət iqtisadi və sosial infrastrukturun yaradılması, altıncı istiqamət isə sənaye parkları, aqroparklar, vergi-gömrük güzəştləri, kreditlərin və investisiyaların sığortalanması mexanizmi və digər dövlət təşviqlərindən istifadə etməklə iqtisadiyyatın canlandırılmasıdır”.



İcraçı direktor diqqətə çatdırıb ki, yeddinci istiqamət yaşayış məntəqələrinin planlı şəkildə bərpasıdır. Nazirlər Kabinetinin 2022-ci il 16 avqust tarixli qərarı ilə ”İşğaldan azad edilmiş ərazilərin Ümumi planı” təsdiq edilib. Bu əsasda şəhərlərin və kəndlərin bərpası plana uyğun aparılır. Artıq Şuşa, Ağdam, Cəbrayıl, Zəngilan, Fizuli, Qubadlı, Laçın, Kəlbəcər şəhərlərinin baş planı hazırdır. Əhalinin Böyük Qayıdışı isə səkkizinci istiqaməti təşkil edir. Nəhayət, doqquzuncu istiqamət Ermənistanın işğal dövründə törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb edilməsidir. Azərbaycana vurduğu ziyanı ödəmək Ermənistanın beynəlxalq hüquq qarşısında öhdəliyidir. Bu məsuliyyət həm maddi, həm də qeyri-maddi olmaqla müxtəlif formalara malikdir: reparasiya, restitusiya, təzminat və ya kompensasiya və satisfaksiya.

V.Qasımlı deyib ki, ”Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na uyğun olaraq ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış” Dövlət Proqramı icra ediləcək: ”İşğaldan azad olunan ərazilərdə bərpa-quruculuq işlərinə ötən müddətdə təxminən beş milyard manat vəsait xərclənib. Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın altı əsas istiqamət üzrə inkişafı gözlənilir: kənd təsərrüfatı, ərzaq sənayesi, dağ-mədən sənayesi, ”yaşıl enerji”, nəqliyyat-logistika və turizm. Təbii-iqlim şəraiti, tarixi ənənə, coğrafi yerləşmə və demoqrafik potensiala uyğun olaraq işğaldan azad edilmiş ərazilərin əsas inkişaf drayverləri də müəyyənləşir. 100 min nəfərlik Ağdam şəhəri yüngül sənaye və xidmət mərkəzi, Araz boyunca yerləşən Füzuli, Cəbrayıl və Zəngilan rayonları nəqliyyat-logistika qovşağı və əkinçilik, Kəlbəcər və Laçın rayonları dağ-mədən sənayesi, ”yaşıl enerji”, turizm, heyvandarlıq, Şuşa isə mədəniyyət paytaxtı olaraq yaradıcı sənayesi ilə bölgənin qravitasiya mərkəzlərinə çevrilir. Bizim hesablamalarımız göstərir ki, 2030-cu ilə qədər Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizi həddində iqtisadiyyata malik ola bilər. Qarabağ və Şərqi Zəngəzurda həyatın geri qayıtması Dördüncü Sənaye İnqilabı və Davamlı İnkişaf Məqsədləri ilə həmahənglik təşkil etməklə bölgəni SMART regiona çevirməyi hədəfləyir”.

Konfransda ”Yeni idarəçilik modeli” mövzusunda çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, Azərbaycan Ordusu 30 illik həsrətdən sonra Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına tarixi qələbə qazanaraq torpaqlarımızı işğaldan azad edib. Öz ərazi bütövlüyünü bərpa etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir. Tamamilə dağıdılmış rayon və şəhərlərimiz hazırda yeni idarəçilik modeli əsasında yenidən qurulur. Bu proses bilavasitə işğaldan azad edilmiş rayonlarımızın və bütövlükdə ölkənin iqtisadi, sosial potensialının artırılmasına, eyni zamanda, idarəetmənin təkmilləşdirilməsinə istiqamətləndirilib. Onun sözlərinə görə, dövlət başçısının tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilər üzrə hazırlanmış Strateji Fəaliyyət Planı əsasında bütün ərazilərin, şəhər, qəsəbə və kəndlərin bərpasının vahid konsepsiya üzrə həyata keçirilməsinə başlanılıb. Eyni zamanda, Prezident İlham Əliyevin imzaladığı ”Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” 2021-ci il 7 iyul tarixli Fərmanla işğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi əsas məqsəd olaraq qarşıya qoyulub. Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində həyata keçirilən irimiqyaslı proqramların mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə icrasına, bölgənin çevik idarəetmə, yeni məskunlaşma və şəhərsalma strategiyasına uyğun inkişafına xidmət edir.



E.Hüseynov qeyd edib ki, idarəetmə çərçivəsi ”Azərbaycan 2030: milli prioritetlər”, ”Strateji Fəaliyyət Planı” və ”2022-2026-cı illər üçün Dövlət Proqramı” kimi strateji sənədləri rəhbər tutur. Bu sənədlər yenidənqurma və inkişaf prosesinin 4 əsas mərhələsini müəyyən edir. Onlardan birincisi, ümumi və baş planların layihələndirilməsi, ikincisi, minatəmizləmə və baza infrastrukturun yaradılması, üçüncüsü, sosial, ictimai və iqtisadi infrastrukturun tammiqyaslı yenidən qurulması və inkişafı, dördüncüsü isə, keçmiş məcburi köçkünlərin Böyük Qayıdışıdır. Onun sözlərinə görə, hələlik Qarabağ İqtisadi Rayonunda Ağdam və Füzuli şəhərlərinin ümumi və baş planları hazırdır, Hadrut və Tuğ, eləcə də Suqovuşan və Talışda yekunlaşma işləri aparılır. Eyni zamanda, Azərbaycan üzləşdiyi bütün çətinliklərə baxmayaraq, digər dövlətlərin və beynəlxalq təşkilatların dəstəyi olmadan Qarabağ İqtisadi Rayonu daxilində işğaldan azad edilmiş ərazilərin 13 faizini minalardan və digər partlamamış hərbi sursatlardan təmizləyərək tam miqyasda minatəmizləmə əməliyyatlarını davam etdirir.



Xüsusi nümayəndə diqqətə çatdırıb ki, sosial infrastruktur baxımından artıq 4 məktəb layihəsi həyata keçirilir ki, onlardan da 2-si bu ilin sonuna kimi hazır olacaq. Tezliklə Ağdam və Füzulidə 2 Mərkəzi Xəstəxananın tikintisinə başlanılacaq. Eləcə də Qarabağ İqtisadi Rayonunda yaşayış binalarının tikintisinə başlanılıb. ”Artıq işğaldan azad edilən torpaqların sosial-iqtisadi sistemə səmərəli reinteqrasiyası təmin edilir. Bu strateji məqsədin həyata keçirilməsi üçün düşməndən təmizlənən ərazilərdə mərhələli şəkildə, prioritetləşdirilməklə, səmərəlilik şərtləri nəzərə alınmaqla və müasir təcrübəyə əsaslanmaqla bərpa-quruculuq işlərinin həyata keçirilməsi, rəqəmsal texnologiyaların geniş tətbiqi ilə müasir sosial və biznes infrastrukturunun yaradılması, bu əsasda Azərbaycan vətəndaşının dayanıqlı məskunlaşmasının təmin edilməsi uğurla gerçəkləşdirilir. Yeni innovativ idarəetmə modeli çərçivəsində Qarabağda yaxın perspektivdə SMART idarəçiliyin tətbiqi həmin əraziləri Dördüncü sənaye inqilabının aparıcı qüvvəsinə çevirə bilər. Bu məqsədlə biz artıq Qarabağda ağıllı şəhərlər və kəndlər tikilməsi üçün araşdırma və planlaşdırma işlərinə başlamışıq. Ən əsas məqsəd isə əhalinin həyat səviyyəsini yüksəldəcək təhlükəsiz, səmərəli, yaşıl və texnoloji cəhətdən inkişaf etmiş şəhər və kəndlərə sahib olmaqdır”, - deyə E.Hüseynov vurğulayıb.

Tədbirdə kənd təsərrüfatı naziri İnam Kərimov ”İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı” mövzusunda çıxış edib. Nazir bildirib ki, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. Perspektivdə azad olunmuş torpaqların təbii-iqlim və relyef xüsusiyyətləri nəzərə alınmaqla bölgədə xüsusilə taxıl və yem bitkiləri və heyvandarlıq məhsulları istehsalı üstünlük təşkil edəcək. Bölgə üçün ənənəvi hesab edilən heyvandarlıq və taxılçılıq sektorları ilə yanaşı, meyvəçilik və tərəvəzçiliyin inkişafı potensialı da genişdir. Azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafında yeni trend kimi intensiv meyvəçilik sahələrinin, xüsusilə nar, fındıq, çəyirdəkli meyvəçiliyin inkişafı üçün perspektivlər var. Ağdam, Füzuli, Cəbrayıl rayonlarında pambıqçılığın, Ağdam və Füzuli rayonlarında tərəvəzçiliyin, Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında milli üzüm sortları əsasında üzümçülük-şərabçılıq sahələrinin inkişafı baxımından əlverişli imkanlar mövcuddur. Kəlbəcər və Laçın rayonlarının zəngin otlaq və yaylaqları heyvandarlığın və arıçılığın inkişafında mühüm əhəmiyyət kəsb edir. Həmçinin bu bölgədə heyvandarlıq sahəsinin intensiv və yarımintensiv ferma modeli əsasında da inkişafı təmin ediləcək. Bölgədə quruculuq işlərinin əsas istiqamətlərindən birini yeni logistika infrastrukturunun qurulması təşkil edir. Logistika imkanlarının genişlənməsi kənd təsərrüfatı məhsullarının ixrac bazarlarına çıxarılmasına imkanlar yaradacaq. Bütün bunlar göstərir ki, azad olunmuş ərazilərin aqrar potensialından səmərəli istifadə ölkə üzrə kənd təsərrüfatı məhsullarının istehsalını ciddi şəkildə artıracaq.

İ.Kərimov xatırladıb ki, ötən əsrin 80-ci illərində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərindəki rayonlar respublika üzrə kənd təsərrüfatı məhsulları istehsalında əhəmiyyətli paya malik idilər: ”Taxıl məhsullarının təqribən 14 faizi, kartof, tərəvəz və bostan məhsullarının təqribən 6 faizi, tütünün təqribən 8 faizi, üzümün təqribən 25 faizi, ət və süd məhsullarının hər biri üzrə istehsalın təqribən 15 faizi bu bölgənin payına düşürdü. Bu rəqəmlər azad olunmuş ərazilərin kənd təsərrüfatı potensialının nə qədər yüksək olduğunu təsdiqləyir. Hazırda əkinə yararlı torpaq sahələrində kənd təsərrüfatı fəaliyyətlərinin bərpası məqsədilə intensiv işlər aparılır. 2021-2022-ci təsərrüfat ilində 50 min ha-dan çox sahədə payızlıq və yazlıq əkinlər həyata keçirilib. Əkinlərin 95 faizindən çoxunu arpa və buğda əkinləri təşkil edib və becərmə işləri dəmyə şəraitində aparılıb. 2022-2023-cü il üçün intensiv şum və səpin işləri aparılır, payızlıq əkin sahəsinin əvvəlki ilə nisbətən artırılması nəzərdə tutulur. Azad olunmuş ərazilərdə mövcud bağların qorunması və yeni intensiv meyvə bağlarının salınması işinə də xüsusi diqqət yetirilir”.

Nazir deyib ki, kənd ərazisində iqlim əsaslı ”ağıllı kənd təsərrüfatı” modeli tətbiq olunur: ”Bu model özündə kooperativ idarəetmə sistemini, müasir texnologiyalar əsasında qurulmuş tarla, bağ və fermaları, dronlar vasitəsilə idarəetmə və nəzarəti ehtiva edir. ”Ağıllı təsərrüfat”lar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verir”.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev isə ”Post-müharibə dövründə sosial dəstək siyasəti” mövzusunda çıxış edib. Nazir bildirib ki, son illərdə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl, genişmiqyaslı islahatlar həyata keçirilib. Son 4 ildə 3 sosial islahat paketi həyata keçirilib ki, bu da 4 milyon nəfəri əhatə edib. Onun sözlərinə görə, bu müddət ərzində orta pensiya 80 faiz artıb: ”Çox nadir ölkələr göstərə bilərik ki, belə böyük nailiyyətlər əldə edə bilsin. Həmçinin Prezident İlham Əliyev tərəfindən qazilərə, şəhid ailələrinə diqqətin göstərilməsi üçün tapşırıqlar verilib. 4 min ailəyə evlər, mənzillər verilib. 21 min müharibə iştirakçısı, şəhid ailəsi özünəməşğulluq tədbirləri ilə əhatə olunub. Azərbaycan dövlətinin icra etdiyi proqramların əhatə dairəsi genişdir”.

***Ardı Səh. 6***

# “Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konflikt quruculuğu modeli” mövzusunda konfrans keçirilib










Əvvəli Səh. 5

S.Babayev qeyd edib ki, işğaldan azad edilmiş torpaqların sosial-iqtisadi sistemə effektiv reinteqrasiyası təmin edilir. Həmin ərazilərdə mərhələli şəkildə, prioritetləşdirilməklə, rəqəmsal texnologiyaların geniş tətbiqi ilə müasir sosial infrastrukturunun yaradılması, dayanıqlı məskunlaşmanın təmin edilməsi nəzərdə tutulur. Bu baxımdan, 2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modeli ölkəmizdə çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyən edəcək. Eləcə də bu ərazilərdə Böyük Qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərə qayıdan vətəndaşlarımıza pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin proaktiv təyinatı, habelə ehtiyacı olan ailələrə ünvanlı dövlət sosial yardımının təyinatı üçün lazımi tədbirlər həyata keçiriləcək.

Nazir diqqətə çatdırıb ki, gələn ilin birinci rübü ərzində Bərdə regional DOST Mərkəzinin açılışı nəzərdə tutulur. Paralel olaraq Ağdam, Füzuli, Ağcabədi və Tərtərdə DOST filiallarının istifadəyə verilməsi istiqamətində işlər aparılır. Hazırda Füzuli rayonunda yeni SMART kənd və qəsəbələrin tikinti işləri davam etdirilir və onlardan biri də Dövlətyarlı kəndidir. Orada da Smart DOST məntəqəsinin isitifadəyə verilməsi nəzərdə tutulur. Şuşa filialının layihələndirmə işləri də artıq yekunlaşdırılıb. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı nəzərə alınmaqla vətəndaşlarımızın əmək bazarında müvafiq peşə hazırlığının təşkili məqsədilə Cəbrayıl rayonunda Peşə Hazırlığı Mərkəzinin inşası nəzərdə tutulur. Həmçinin Kəlbəcər rayonunda əlilliyi olan şəxslərin Reabilitasiya Mərkəzinin yaradılması planlaşdırılır.

Konfransda ”Yaşıl enerji zonası” mövzusunda çıxış edən energetika naziri Pərviz Şahbazov bildirib ki, postmünaqişə quruculuğu ilə bağlı dövlət başçısının siyasəti imkan verir ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə uzunmüddətli sabitlik və regional iqtisadi inteqrasiyanı təmin edəcək təşəbbüs və layihələrlə Avrasiyanın strateji əhəmiyyətli nəqliyyat və logistika, həmçinin ”yaşıl enerji” mərkəzinə çevrilsin. Bərpa olunan enerji sahəsinin inkişafına yalnız dekarbonizasiya, enerji balansının şaxələndirilməsi deyil, həmçinin postmünaqişə dövründə quruculuq kontekstində əhəmiyyət verilir. Azərbaycan Prezidentinin Qarabağ və Şərqi Zəngəzuru xalis sıfır emissiyalı ”Yaşıl enerji zonası” elan etməsi məhz belə bir mütərəqqi inkişaf siyasətinin təzahürüdür. Belə bir inkişaf modeli Azərbaycanın təmiz ətraf mühitə malik ”yaşıl artım”, ”yaşıl enerji”ni istehsal və ixrac edən ölkəyə transformasiyasında azad edilmiş ərazilərin rolunu gücləndirir.

Nazir qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə 2022-2026-cı illərdə ”yaşıl enerji” zonasının yaradılması üzrə çoxistiqamətli tədbirlərlə ölkəmizdə bərpa olunan enerjinin inkişafı geniş vüsət alır: ”Bu ərazilərin bərpa olunan enerji mənbələri üzrə potensialı 10 min meqavata yaxındır. Qeyd olunan potensial əsasında 4 il ərzində ümumi gücü 780 MVt olan külək, günəş və iri su elektrik stansiyalarının inşası nəzərdə tutulur. Bu istiqamətdə hazırda bp şirkəti ilə Cəbrayılda illik təxminən 500 milyon kVt·st elektrik enerjisinin istehsalı proqnozlaşdırılan 240 MVt gücündə ”Şəfəq” günəş elektrik stansiyası layihəsi üzrə işlər aparılır. Həmçinin xarici investor ”Masdar” şirkəti ilə quruda və dənizdə ilkin mərhələdə 4 QVt gücündə, növbəti mərhələdə isə 6 QVt gücündə həyata keçirəcəyimiz günəş və külək enerjisi layihələrinin bir qismi məhz bu əraziləri əhatə edir. Bu bölgədə kiçik su elektrik stansiyalarının bərpası, Laçın və Kəlbəcərdə külək elektrik stansiyasının inşasına da xarici investisiyanın cəlbi başlıca prioritetlərdəndir”.

P.Şahbazov diqqətə çatdırıb ki, iki ilə yaxın müddətdə 11 kiçik su elektrik stansiyasının bərpası enerji sisteminə 54 meqavata yaxın istehsal gücü qazandırır. Hazırda ümumi gücü 320 MVt-dan artıq 50-dən çox kiçik su elektrik stansiyasının bərpa və inşası üçün araşdırmalar aparılır. Ümumi gücü 33,4 MVt olan 7 kiçik su elektrik stansiyasının bərpa-tikintisi həyata keçirilir. Bunlardan əlavə, yaxın illərdə Araz çayı üzərində 140 MVt gücündə ”Xudafərin” və ”Qız Qalası” hidroqovşaqları və su elektrik stansiyalarının istismara verilməsi də regionun ”yaşıl” inkişafına öz töhfəsini verəcəkdir. ”Bu güclərin yaradılması azad edilmiş əraziləri ”yaşıl enerji”nin istehsal və istehlakı ilə bərabər ixracının da mənbə və marşrutuna çevirir. Hazırda ”yaşıl enerji”nin ənənəvi bazarlarla bərabər Avropaya ixracı üçün nəzərdən keçirilən üç xətdən biri - Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizi bu yeni reallığın perspektivlərindəndir. Postmünaqişə mərhələsində tarixi və geostrateji əhəmiyyətli Zəngəzur dəhlizinin yaradılması Asiyanı Avropa ilə təkcə nəqliyyat deyil, enerji vasitəsilə də birləşdirmək imkanlarına malikdir”, -deyən nazirin sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurun xalis sıfır emissiyalı ”yaşıl enerji” zonası kimi qurulması 2050-ci ilə qədər karbon emissiyalarının 40 faiz azaldılması hədəfimizə doğru aparan yolun əhəmiyyətli hissəsidir.

Konfransda ”Postmüharibə dövründə informasiya siyasəti” mövzusunda çıxış edən ”Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov bildirib ki, postmüharibə mediası milli məsələlərdə prinsipiallıq nümayiş etdirməli və dövlətçilik maraqlarını daim uca tutmalı, saxta və yalan məlumatlara söykənən qlobal kampaniyalarla effektiv mübarizə aparmalıdır. Eyni zamanda, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətin tərəqqisi naminə yorulmadan çalışmalıdır. ”Prezident İlham Əliyevin istər müharibə, istərsə də postmüharibə dövründə yürütdüyü dəqiq informasiya siyasəti, dövlət başçısının əsasını qoyduğu hücum diplomatiyasının ideoloji - təbliğat metodikası bu gün hər bir media orqanı, hər bir jurnalist üçün başlıca fəaliyyət konsepsiyası sayıla bilər”, - deyən R.Məmmədov fikrini konkret nümunələrlə əsaslandırıb. Birinci nümunə Prezident İlham Əliyevin 44 günlük müharibə ərzində xarici media orqanlarına 30-dan çox müsahibə verməsidir. Bu müsahibələr nəticəsində qardaş Türkiyəni nəzərə almasaq, qlobal informasiya arenasında tək mübarizə aparan Azərbaycan bu savaşın işğal, təcavüz deyil, məhz ədalətli müharibə olduğunu bütün dünyaya sübut etdi.

Onun sözlərinə görə, ikinci nümunə Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə müntəzəm səfərləri və beynəlxalq tədbirlərdə aktiv iştirakıdır. Prezident işğaldan azad olunmuş regionlara səfər etməklə dünyanın diqqətini növbəti dəfə Qarabağa və 30 illik erməni işğalının real izlərinə, erməni vandallığına yönəldir. Eləcə də Qarabağda aparılan genişmiqyaslı bərpa - yenidənqurma işlərini daim diqqətdə saxlamaqla Böyük Qayıdışın ən qısa zamanda reallaşması istiqamətində prinsipial addımlar atır və bu prinsipiallığı da bütün dünyaya nümayiş etdirir. Həmçinin konkret olaraq Avropa Şurası, ATƏT, UNESCO-nun və digər beynəlxalq təşkilatların 30 illik işğal dövründə yürütdüyü qeyri - obyektiv və ikili standartlar siyasəti konkret faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırır, işğal edənlə işğala məruz qalan arasında fərqi ortaya qoyur.

Ardı Səh. 7

# “Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konflikt quruculuğu modeli” mövzusunda konfrans keçirilib

Əvvəli Səh. 6



R.Məmmədovun sözlərinə görə, üçüncü nümunə Prezident İlham Əliyevin daim vətəndaşlarla görüşməsi, vətəndaşı maraqlandıran suallara yerindəcə, ətraflı cavab verməsi və həmin görüşlərdə yalnız daxili siyasətə deyil, həm də Azərbaycanın yürütdüyü regional və qlobal siyasətin ən mühüm detallarına toxunması, şərh etməsi, o cümlədən yerli kütləvi informasiya vasitələrinə müsahibə verməsidir. Onun fikrincə, atılan bu addımlar postmüharibə mediasının qarşısında duran strateji vəzifələrə aydınlıq gətirməklə yanaşı, yeni dövrün əsas mövzularına, jurnalistlərin diqqət yetirməli olduğu başlıca tematik istiqamətlərə işıq salır: ”Bunlar 44 günlük Vətən müharibəsinin geosiyasi əhəmiyyətinin, Qarabağın reinteqrasiyasının və azad Qarabağın yalnız siyasi, sosial və ya hərbi deyil, həmçinin iqtisadi önəminin, qədim Azərbaycan torpaqları, o cümlədən Şərqi Zəngəzur reallığının tarixi aspektlərinin dünyaya çatdırılmasıdır. Bu da xüsusi qeyd edilməlidir ki, yalnız güclü dövlətin və güclü xalqın güclü mediası ola bilər. Müasir Azərbaycan isə Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, tarixinin ən uğurlu və ən güclü dövrünü yaşayır. Deməli, müasir Azərbaycan mediası da bu reallıqla ayaqlaşmalı, postmüharibə dövrünün tələblərinə adekvat addımlar atmalı və informasiya siyasətində üzərinə düşən strateji vəzifələrin (milli məsələlərdə prinsipiallıq, dezinformasiya ilə effektiv mübarizə və vətəndaşların düzgün məlumat əldə etmək hüquqlarının qorunması) praktik həllinə çalışmalıdır”.

Konfransın yekununda çıxış edən Azərbaycan Respublikasının Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, 30 il ərzində xalqımız işğal faktı ilə razılaşmadı, güc topladı və öz torpaqlarını işğaldan azad etdi. Hər bir dövlətin əsas missiyalarından biri öz təhlükəsizliyini təmin etməkdir və Azərbaycan dövləti də bunu etdi. Onun sözlərinə görə, Qələbənin təmin olunmasının mühüm amillərindən biri də güclü Azərbaycan Ordusu, qəhrəman hərbçilərimizdir: ”Güclü ordumuz olmasaydı, öz torpaqlarımızı işğaldan azad edə bilməzdik. 30 il əvvəl Azərbaycan zəif olduğuna görə torpaqlarımız işğal olunmuşdusa, dövlətimizin qüdrəti, ordumuzun döyüş qabiliyyəti sayəsində torpaqlarımız azad edildi. Qələbəmizin həlledici amili isə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Bu mənada, Azərbaycan xalqının böyük coşqu ilə qeyd etdiyi Qələbəmizin baş qəhrəmanı Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevdir. Biz hərb və diplomatiya cəbhəsində cənab İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini gördük. Xalqımızın, dövlətimizin birliyi, dövlətimizin başçısına inam Qələbə ilə nəticələndi. Məhz bunun nəticəsidir ki, Ermənistan tərəfindən 30 il işğal altında saxlanılan torpaqlarımızı 44 gün ərzində azad etdik. Eyni zamanda, bu şanlı qələbədən sonra Azərbaycan tarixinin yeni mərhələsi başlayıb. Azərbaycan xalqı dünyada özünün dəyanəti, əyilməzliyi və ordusunun gücü ilə də tanınıb”.

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan vətəndaşları bu günü gələcəkdə daha da inkişaf edəcək Azərbaycanın etibarlı bünövrəsi hesab edirlər: ”Qazandığımız möhtəşəm Zəfər həm siyasi, həm geosiyasi, həm də təhlükəsizlik məzmununa malikdir. Bu baxımdan, əldə etdiyimiz hər bir nailiyyət mahiyyət etibarilə gələcək uğurların bünövrəsi rolunu oynayır. Möhtəşəm Zəfərimizi son onilliklər ərzində yaşadığımız nailiyyətlərin, uğurların məntiqi və alternativsiz nəticəsi hesab etmək olar”.

Ə.Əhmədov deyib ki, Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan qalib dövlət, Azərbaycan xalqı isə qəhrəman xalq kimi yeni statusa sahib oldu: ”Bu da Azərbaycanın yeni nailiyyətlər əldə etməsi üçün baza yaradır. Azərbaycan işğal altındakı torpaqlarını öz gücü hesabına geri qaytarmaqla qüdrətini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan Qarabağı yenidən qurmaqla dünyaya yeni bir nümunə göstərəcək. Azərbaycan indi dünyaya yeni bir mənzərəni təqdim etməyə hazırlaşır. Qarabağ dünyanın yeni mənzərədə ortaya çıxan reallığı olacaq ki, burada insan üçün ən layiqli şərait yaradılacaq. Bütün bunların hamısı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən siyasətin Azərbaycan xalqına gətirdiyi böyük uğurlardır. Bu uğurların nəticəsi olaraq Ulu Öndərimizin dediyi kimi, Azərbaycan daim dünyaya günəş kimi doğacaq”.

Qeyd edək ki, konfransda ”Yeni Qarabağnamə” kitabının videotəqdimatı keçirilib.

# “Azərbaycanın güclü və haqlı mövqeyi qalib gələcək”

**“Azərbaycan bütün region dövlətləri ilə əməkdaşlığın daim inkişaf etdirilməsi təşəbbüsləri ilə çıxış edib və bu istiqamətdə praktiki addımlar atıb. Eyni zamanda, İranla hər zaman mehriban qonşuluq münasibətlərinin saxlanılması, birgə layihələrdə iştirak əməkdaşlığın ən müxtəlif istiqamətlərdə genişləndirilməsi məsələsi də bizim dövlətimizin diqqət mərkəzində olub”. Bunu millət vəkili Elşad Mirbəşiroğlu ”Səs” qəzetinə açıqlamasında bildirib.**



Onun sözlərinə görə, əksər hallarda İran işğalçı Ermənistanın Azərbaycana və Azərbaycan xalqına qarşı törətdiyi qanlı cinayətləri görməzlik edir: ”Həqiqətən də, müasir dünyada ermənilərin törətdikləri qədər qanlı cinayətlər, terror aktları nə başqa xalqlarda, nə də ki, dövlətlərdə müşahidə olunmayıb. Bütün islam dünyası keçmiş münaqişə vəziyyətində Azərbaycanın yanında olduğunu hər zaman açıq nümayiş etdiriblər. Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətini, qanlı cinayətlərini hər zaman pisləyiblər. Post münaqişə mərhələsində Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar formalaşdırdı. Həm də regionun təhlükəsizlik sisteminin qurulması üçün real imkanlar yaradıb, əməkdaşlıq təşəbbüsləri ilə çıxış edib. Əslində, Azərbaycanın bu addımları bütün region ölkələrinin maraqlarına və bütövlükdə gələcək əməkdaşlıq imkanlarına cavab verir”.

E.Mirbəşiroğlu onu da bildirib ki, Ermənistanın son dövrlərdə özünün ağır məğlub durumunu qismən də olsa yüngülləşdirmək üçün cəhdləri fonunda, İranla daha yaxından əməkdaşlıqetmə cəhdləri bütövlükdə Ermənistanın özünü cəzasızlıq şəraitində hiss etməsinə gətirib çıxarır: ”Yəni bir dövlət, qonşu dövlətin ərazilərini 30 il işğal altında saxlayır, Azərbaycana qarşı terror aktları həyata keçirir. Bu gün də Ermənistan təxribatlarını davam etdirməkdədir. Amma İran belə bir dövlətlə münasibətlərini daha da istiləşdirir, əməkdaşlığı daha da genişləndirir. Bu, bütövlükdə bir dünya təcrübəsi üçün çox təhlükəli presidentdir. Bu baxımdan, həm də İran onu da nəzərə almalıdır ki, Ermənistan kimi dağıdıcı bir ölkə ilə bu dərəcədə yaxınlaşma Cənubi Qafqaz regionunun gələcək təhlükəsizlik və əməkdaşlıq arxitekturası üçün yaxşı heç nə vəd etmir. Ümid edək ki, nəhayət sağlam məntiqə sığınaraq İran regionda sülhün, təhlükəsizliyin etibarlı təmin olunmasına töhfə verəcək mövqelər sergiləyəcək. Bu baxımdan, hesab edirəm ki, bütün hallarda Azərbaycanın güclü və haqlı mövqeləri qalib gələcək. Cənubi Qafqaz regionunda marağı olan hər bir kəs məhz Azərbaycanla əməkdaşlıq şəraitində daha yaxşı əməkdaşlıq, daha etibarlı sülh və təhlükəsizlik sisteminin qurulması imkanlarını görməkdədirlər”.

***Gülyana***

# Tahir Budaqov: “Azərbaycan postkonflikt dövründə məqsədyönlü quruculuq siyasəti həyata keçirir”




“Azərbaycanın 30 ilə yaxın işğal altında qalmış əzəli torpaqları Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən azad olundu. Möhtəşəm Qələbə danışıqlar masasında deyil, məhz döyüş meydanında əldə edildi. Bu, yalnız tarixi ədalətin deyil, eyni zamanda, milli qürurun bərpasıdır. Azərbaycan qalib ölkə kimi bütün regionda yeni geostrateji reallıq yaratdı”.

Bu fikirləri jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov söyləyib. Tahir Budaqov bildirib ki, bu gün Azərbaycan bölgədə bütün dövlətlər üçün faydalı və önəmli təşəbbüslərlə çıxış edir. Azərbaycanın postkonflikt dövründə məqsədyönlü quruculuq siyasəti həyata keçirdiyini, işğaldan azad olunmuş ərazilərdə nəhəng infrastruktur layihələrini reallaşdırdığını vurğulayan YAP Sədrinin müavini ölkəmizin təşəbbüslərinin bölgədə sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət etdiyini söyləyib. Tahir Budaqov Zəngəzur dəhlizinin açılmasının təkcə Azərbaycanın deyil, Çindən Avropaya qədər bütün ölkələrin maraqlarını əks etdirdiyini bildirib.

Bu il Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinin qeyd olunduğunu deyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, bununla bağlı geniş Tədbirlər Planı təsdiq olunub və uğurla icra edilir.

”Bütün rayon və şəhər təşkilatları tərəfindən yerlərdə yubiley tədbirləri reallaşdırılır. Eyni zamanda, gənclər arasında müxtəlif idman yarışları və intellektual oyunlar keçirilir. Noyabrın 5-də Azərbaycan Texniki Universitetinin idman zalında minifutbol üzrə turnirin finalı olacaq. Bu turnirə ölkə üzrə 72 komanda qatılmışdı. Seçmə mərhələlərdən sonra üç komanda finala çıxıb. Eyni zamanda, noyabrın 6-da Gülüstan sarayında ”Nə? Harada? Nə zaman?” intellektual oyununun finalı olacaq. Bölgələrdə keçirilən seçmə mərhələdən sonra qalib gəlmiş 21 komanda birinci, ikinci və üçüncü yer uğrunda yarışacaqlar. Bilik yarışmasında iştirak edən gənclər ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində müstəsna yeri və rolu, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti və Yeni Azərbaycan Partiyasının 30 illik zəngin və şərəfli inkişaf tarixi ilə bağlı sualları cavablandırırlar. Bundan başqa, gələn həftə gənclər arasında şahmat turnirinin, həmçinin sərbəst və yunan-roma güləşi üzrə üç çeki dərəcəsində respublika birinciliyinin finalı keçiriləcək. Eyni zamanda, jurnalistlər arasında fərdi yazı müsabiqəsi elan olunub və yazıların qiymətləndirilməsi prosesi aparılır”.

Tahir Budaqov Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi ərəfəsində beynəlxalq konfransın keçirilməsinin də nəzərdə tutulduğunu bildirib. O qeyd edib ki, həm yekun yubiley tədbirində, həm də regionda sülh və təhlükəsizlikdə siyasi partiyaların rolu mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək məqsədilə ölkəmizə bir sıra dövlətlərdən qonaqlar təşrif buyuracaqlar.

# “YAP 30 il ərzində son dərəcə şərəfli bir yol qət edib”



Əziz Ələkbərli
Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri

Yeni Azərbaycan Partiyası Azərbaycanın son 30 illik siyasi tarixinin ayrılmaz hissəsi, Azərbaycan dövlətinin və Azərbaycan xalqının bu 30 ildəki bütün uğurlarında müstəsna xidmətləri olan siyasi təşkilatdır. Bu təşkilatın son 30 ildə qazandığı bütün uğurların əsas səbəbi onun sağlam təməllər üzərində qurulması, məram və məqsədinin milli və dövlət maraqlarına xidmət etməsi və bütün bunlardan da daha əhəmiyyətlisi - onu yarada və qarşıya qoyduğu ali məqsədləri uğurla həyata keçirə biləcək siyasi Liderin düzgün seçilməsi idi. Bu siyasi Lider Azərbaycanın XX yüzildə ən böyük dövlət və siyasət xadimi Heydər Əliyev ola bilərdi və oldu.Təsadüfi deyil ki, 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə siyasi partiya yaratmaq xahişi ilə üz tutan bir qrup Azərbaycan ziyalısı israrla Ona: ”İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz!” - deyə müraciət edirdi və fikirlərində tamamilə haqlı idilər. Ulu Öndərə müraciət edənlər israrla bildirirdilər ki, ”Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübəsinə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın, deməli olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni AzərbaycanPartiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq Lider Siz ola bilərsiniz.”

Müraciətdən göründüyü kimi, Yeni Azərbaycan Partiyasının yaranması həmin dövr Azərbaycan cəmiyyəti üçün obyektiv zərurət idi və ona Ulu Öndər Heydər Əliyevin rəhbərlik etməsi millətin və tarixin tələbi idi. Azərbaycan ziyalılarının müraciətinə həssaslıqla yanaşan Ulu Öndər Heydər Əliyev onlara 24 oktyabr 1992-ci il tarixli cavabında yeni yaradılacaq partiyanın Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin öhkəmləndirilməsində və inkişafında tarixi rol oynayacağına əminliyini ifadə etmiş və ”Yeni, müstəqil Azərbaycan uğrunda!” şüarını irəli sürmüşdü.Tarix Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyini bir daha sübut etdi. Yeni Azərbaycan Partiyası 30 il ərzində əvvəl Ulu Öndər Heydər Əliyevin, sonra isə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında son dərəcə şərəfli bir yol qət edib. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilməkdədir. 44 günlük Vətən Müharibəsi nəticəsində xalqımız Azərbaycan tarixinin son 270 ilində analoqu olmayan möhtəşəm bir Zəfərə imza atdı. Bu Zəfərdə həyatını Vətən yolunda qurban verən şəhidlərimizin, sağlamlığını təhlükə qarşısında qoyan qazilərimizin, qəhrəman əsgər və zabitlərimizin müstəsna xidmətləri oldu və biz onların hər birinin xatirəsi və özü qarşısında baş əyirik, Vətən onların xidmətini heç vaxt unutmayacaq, onların hər biri bizim qəhrəmanımızdır. Lakin bu Zəfərin Baş Qəhrəmanı möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir, onun siyasi iradəsidir, diplomatik gücüdür, hərbi sərkərdəlik bacarığıdır.30 il davam edən Vətən Müharibəsi - 1-ci və 2-ci Qarabağ müharibəsi sona çatsa da, 200 illik tarixə malik erməni-Azərbaycan münaqişəsi hələ də davam etməkdədir. 30 il işğal altında qalan torpaqlarımız düşməndən azad edilsə də, hələ də düşmənin tapdağı altında olan tarixi torpaqlarımız var. Əgər düşmən 44 günlük müharibədən nəticə çıxarmadısa, deməli, heç vaxt nəticə çıxarmayacaq. Əgər düşmən bu 200 ildə xalqımıza qarşı həyata keçirdiyi saysız-hesabsız cinayətlərə baxmayaraq, yenə də bizimlə qonşuluqda, əmin-amanlıqda yaşaması üçün ona verdiyimiz şansları dəyərləndirə bilmədisə, yenə də bizə qarşı düşmənçilik mövqeyində qalmaqda davam edirsə, deməli, o, heç vaxt ağıllanmayacaq. Ona görə də bu gün biz qətiyyən şübhə etmirik ki, Prezident İlham Əliyevin millətimiz və dövlətimiz naminə yeritdiyi ardıcıl, qətiyyətli, prinsipial siyasət nəticəsində, məcburi köçkünlərimiz kimi, Qərbi Azərbaycanlı qaçqınlarımız da tezliklə öz dədə-baba yurdlarına qayıdacaqlar.Yeni Azərbaycan Partiyasının 30 illik yubileyini bu gün işğaldan azad etdiyimiz torpaqlarda qeyd etmək imkanımız var, qətiyyən şübhə etmirik ki, partiyamızın 40 illik, 50 illik yubileylərini tarixi torpaqlarımız olan Zəngəzurda, Dərələyəzdə, Göyçədə, İrəvanda qeyd edəcəyik.

# Sabunçu rayonunda YAP-ın təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirilib






**Noyabrın 3-də Bakı Gənclər Mərkəzinin konfrans zalında Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Sabunçu rayon təşkilatının sədr müavini Zülfüqar Cəfərov bildirib ki, Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il 21 noyabr tarixi ölkəmizin ictimai-siyasi həyatında yeni başlanğıc nöqtəsi sayılır: ”Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan Yeni Azərbaycan Partiyasının 30 illik inkişaf tarixi göstərdi ki, partiyanı yaradanlar, bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar. Bu gün də Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Partiya ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir”.

YAP Veteranlar Şurasının üzvü Şahlar Əsgərov çıxışında vurğulayıb ki, xalqı arxasınca aparmağa qadir, insanlarda inam yarada biləcək siyasi partiyanın təsis olunmasına və həmin təşkilata dövlət idarəçiliyində böyük təcrübəsi olan şəxsiyyətin rəhbərlik etməsinə böyük ehtiyac yarandığı bir dövrdə Ulu Öndərin yüksək nüfuzu, xalqın ona böyük inamı, etimadı və davamlı dəstəyi Yeni Azərbaycan Partiyasının ardıcıl uğurlar qazanmasını təmin edən əsas amil oldu.

Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev müstəqil Azərbaycan tarixində özünəməxsus yer tutan Yeni Azərbaycan Partiyasının uğurlarının təməlində məhz ulu öndər Heydər Əliyevin siyasi kursunun olduğunu bildirib. Vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da böyük nailiyyətlərə imza atacaq.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında dayanan yeni çağırışlardan bəhs edib. Bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə özünün qələbələr salnaməsinə daha bir möhtəşəm səhifə əlavə edərək tarixi Zəfər qazandı. Bu, qətiyyətli sərkərdənin ”dəmir yumruğu”, qüdrətli ordunun şücaəti, xalqın liderinə sarsılmaz inamı sayəsində reallaşdı. Tədbirdə, həmçinin partiya veteranı Gülnaz Abdullayeva, Vətən müharibəsi qazisi Vüqar Muradov, Azərbaycan Yazıçılar Birliyinin üzvü Vəli Qaraçaylı Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan danışıblar.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup fəala fəxri fərman, partiya sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim edilib.

## Yeni Azərbaycan Partiyası - 30

# QƏLƏBƏLƏR PARTİYASI

Yaranmasının 30 illik yubileyini qeyd etdiyimiz Yeni Azərbaycan Partiyasının Azərbaycanın siyasi həyatında müstəsna rolu vardır. YAP ictimai-siyasi zərurətdən yaranan ümumxalq partiyasıdır. Partiyanın yarandığı dövrdə ölkəmizdə hökm sürən xaos, anarxiya və hərc-mərclik Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşməsinə səbəb olmuşdu. Hakimiyyətdə olan səriştəsiz qüvvələr ölkəni dərin siyasi böhrandan xilas etmək iqtidarında deyildi. Bu hadisənin fonunda ölkəmizin üzləşdiyi siyasi, iqtisadi böhran və tənəzzül meyilləri, həmçinin mənəvi-ideoloji kataklizmlər Yeni Azərbaycan Partiyasının yaranmasını zəruri etdi. Belə bir şəraitdə 91 nəfər ziyalı yeni yaranacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə



**_Fatma Yıldırım_**
**_Milli Məclisin deputatı_**




razılıq verməsi üçün 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda 550-dən çox nümayəndənin iştirakı ilə keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası yaradıldı və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi.Yarandığı gündən YAP-ın Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiyamız ötən illər ərzində öz məqsədlərinə uyğun fəaliyyət göstərib.YAP yarandığı vaxtdan ölkənin ictimai-siyasi həyatına həlledici təsir göstərib. Əlbəttə, bu da təsadüfi deyildir. YAP-ın qurucusunun dünya miqyaslı böyük siyasətçi, Azərbaycan xalqının inandığı və sevdiyi dahi bir şəxsiyyətin olması bu prosesdə mühüm və əhəmiyyətli rol oynayıb. YAP sıralarına daxil olan və xalqın mütərəqqi, intellektual təbəqəsini təmsil edən vətəndaşlar Heydər Əliyevin ətrafında birləşərək 1990-cı illərin əvəlində dərin böhrana düçar olmuş Azərbaycanı xilas etmək yolunda öz töhfələrini verdilər. YAP-ın yarandığı tarixi zamana, həmin vaxtlarda Azərbaycanda cərəyan edən hadisələrə nəzər saldıqda, YAP-ın cəmiyyətdə oynadığı rol daha aydın şəkildə özünün bürüzə verir. Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur. Sirr deyil ki, YAP ulu öndər Heydər Əliyevin ideyaları əsasında irəliləyərək böyük və şərəfli yol keçib. Əminliklə söyləyə bilərik ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir. YAP öz səmərəli fəaliyyəti ilə Azərbaycanın inkişafına xüsusi töhfələr verir, ölkənin etibarlı gələcəyinin təmin olunmasında müstəsna rol oynayır.

Ən önəmli məqamlardan biri də budur ki, partiyamız yarandığı vaxtdan xalqımıza xidmət onun başlıca amalı olub. Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipinə söykənən Yeni Azərbaycan Partiyası ölkəmizin ən qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirərək müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş, çoxşaxəli fəaliyyət göstərib. Beləliklə, Yeni Azərbaycan Partiyası siyasi sistemin monolit gücü və avanqard siyasi institutudur. Başqa sözlə, YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sis-temdəki avanqard yerinə görə Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu partiyasıdır. YAP, eyni zamanda, ölkəmizdə siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasına, təkmilləşməsinə birbaşa, fundamental töhfələr verən ümumxalq partiyasıdır.Ümumiyyətlə, faktlar və reallıqlar göstərir ki, Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yoluna malikdir. Eyni zamanda təkzibolunmaz faktdır ki, Yeni Azərbaycan Partiyasının formalaşmasında və inkişafında Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı cənab İlham Əliyev amili əvəzsiz rol oynamışdır. Bu gün Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş inkişaf siyasəti partiyamızın Sədri, cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş, güclü sənaye və iqtisadi resurslara malik, dünya enerji bazarında söz sahibinə çevrilmiş, beynəlxalq siyasi arenada öz imzası olan, dünya ölkələrinin hesablaşmalı olduğu bir ölkəyə çevrilib. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı, ölkəmizin beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirdi.Hazırda Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası ölkəmizin ən güclü siyasi qüvvəsi statusunu daşıyır. Partiyamızın sıralarında 800 min nəfərə yaxın insanın birləşməsi də bu faktı təsdiqləyir. Biz böyük bir ailəyik və böyük siyasi güc olaraq Prezidentimizin ətrafında sıx birləşmişik. Ulu Öndərin müəyyənləşdirdiyi ideya və prinsiplər var və YAP üzvləri də bu yolla addımlayır. Heydər Əliyev ideyalarında yeniləşmə, müasirləşmə amili mühüm yer tutur. Bu gün ölkəmizdə aparılan islahatlar, dəyişikliklər də məhz bu prinsiplərə əsaslanır.

Məlumdur ki, 2020-ci il Azərbaycan tarixində şanlı, qızıl hərflərlə yazılan tarixi səhifə oldu. 2020-ci ildə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz böyük qələbəni Azərbaycan xalqına bəxş etdi. 44 günlük Vətən müharibəsində tarixi zəfər qazanan Azərbaycan bölgədə və dünyada yeni reallıqlar yaradıb. Qazanılmış bütün bu uğurlarda Yeni Azərbaycan Patiyasının da böyük payı var. Çünki yarandığı gündən Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi bütün bacarığını dövlətə, xalqa xidmətə yönəldərək Azərbaycanın qazandığı davamlı uğurlara öz layiqli töhfəsini verib. Təsadüfi deyil ki, Azərbaycan ictimaiyyətinin birmənalı şəkildə dəstəklədiyi Yeni Azərbaycan Partiyası bu zamana qədər qatıldığı bütün seçkilərdə qələbə qazanıb. Prezident, parlament və bələdiyyə seçkilərinin nəticələri, bütövlükdə, Yeni Azərbaycan Partiyasının üstün nüfuzunu, xalqın bu partiyaya inamını göstərən başlıca amillərdəndir.

Ötən ilin mart ayında keçirilən VII qurultay isə Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələnin başlanğıcı hesab edilə bilər. Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə uyğun olaraq, partiyamızın Sədri cənab İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin olundu. Mehriban xanımın YAP Sədrinin birinci müavini təyin olunması qadınlarımızın ictimai-siyasi fəallığına təkan verən əsas amillərdən biridir.Bütövlükdə isə, Azərbaycanda Yeni Azərbaycan Partiyasına rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Bu, hər şeydən əvvəl Yeni Azərbaycan Partiyasının öz gücünü xalqın dəstəyindən aldığını göstərir. Ümummilli Liderimiz, partiyamızın qurucusu Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Yeni Azərbaycan Partiyası öz potensialı, real addımları və bacarıqlı kadrları ilə xalqa xidmət edir. Partiyanın gücü onun siyasi proseslərdəki mühüm rolu, iştirakı və qələbəsi ilə ölçülür. Partiyanın gücü onun ideologiyasındadır, xalqın rəğbətini, sevgisini qazanmasındadır, böyük sosial bazaya malik olmasında və seçkilərdə parlaq qələbələr əldə etməsindədir.

Siyasi proseslərdə liderliyi bir daha göstərir ki, Yeni Azərbaycan Partiyası bundan sonra daha da qüdrətlənəcək, daha böyük siyasi gücə çevriləcək. Çünki ölkənin inkişafına və cəmiyyətin tərəqqisinə xidmət edən Yeni Azərbaycan Partiyasının qarşısında yeni hədəflər də var. Bu hədəflər sırasına Heydər Əliyev irsinin təbliği və təşviqi, güclü iqtisadiyyat və davamlı inkişaf, inklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı, şəffaflığın artırılması, vətəndaş cəmiyyətinin inkişafı və s. məsələlər daxildir. Eyni zamanda, mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması, vətəndaş həmrəyliyinin təminatı, milli maraqlar və xarici siyasət, ordu quruculuğu, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışla da bağlı hədəflər var. Bütövlükdə, YAP-ın fəaliyyətinin hədəfləri milli maraqların qorunması, Azərbaycan dövlətinin dayanıqlı inkişafı, beynəlxalq münasibətlər sistemində nüfuzunun artırılmasına xidmət edir. Xüsusilə də, yeni siyasi konfiqurasiya Yeni Azərbaycan Partiyasının daha da güclənməsini, baş verən bütün ictimai-siyasi proseslərin önündə olmağı tələb edir. Bütün bu yeni çağırışlar Yeni Azərbaycan Partiyasının hər bir üzvünün də üzərinə Heydər Əliyev ideyalarının təbliği, Prezident İlham Əliyevin siyasi kursunun təşviqi istiqamətində böyük fəallıq və işgüzarlıq tələbi müəyyənləşdirir. Gənclərimizin milli vətənpərvərlik ruhunda tərbiyə olunması da qarşımızda dayanan əsas vəzifələrdəndir. Cənab İlham Əliyev daim şanlı Qələbəmizdə bu amilin rolunu xüsusi qeyd edir. Gənclərdə torpaq, Vətən sevgisi onları yumruq kimi birləşdirdi, 30 ilin işğalına son qoymağa, üçrəngli bayrağımızı işğal altında olan torpaqlarımızda dalğalandırmağa səslədi və qəhrəmancasına buna nail oldular. Bu günün prioritet məsələlərindən biri şəhid ailələrinə, qazilərimizə diqqət və qayğının göstərilməsidir. Dövlətimiz onları qayğı ilə əhatə edir. Cənab İlham Əliyev VII qurultayda bildirmişdi ki, YAP üzvləri bu kateqoriyadan olan insanlara daim diqqət, qayğı göstərməlidirlər. Bu istiqamətdə də partiyamız lazımi işlər aparır. Hazırda YAP Azərbaycanın ən böyük siyasi təşkilatı olmaqla bərabər, həm də öz xalqına ən yaxın siyasi təşkilatdır. YAP-ın zəfərlər partiyası kimi nüfuz qazanmasını şərtləndirən əsas amil həmişə xalqın böyük əksəriyyətinin dəstəyini qazanmasıdır.Əminəm ki, Prezidentimiz, partiyamızın Sədri cənab İlham Əliyevin liderliyi ilə müstəqil ölkəmiz bundan sonra da yeni-yeni zəfərlərə imza atacaq. Qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası isə daim ictimai-siyasi proseslərin önündə gedəcək!

# Yeni Azərbaycan Partiyası - 30

# YAP- zəfərlərlə dolu 30 il!

## Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş bir sıra tədbirlər keçirilib

### Göygöl

Noyabrın 3-də Göygöl rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər. Sonra Göygöl Şəhidlər








xiyabanı ziyarət olunub, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə tər güllər düzülüb.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə "Yeni Azərbaycan Partiyası zəfərlərlə dolu 30 il" mövzusunda məruzə ilə çıxış edən YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev partiyanın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, gələcək hədəflərdən danışıb. Vurğulayıb ki, YAP tarixdə çox nadir siyasi təşkilatlardan biri hesab oluna bilər ki, yarandıqdan 6 ay sonra iqtidar partiyasına çevrilib. Bu hadisənin özü xalqın ümummilli lider Heydər Əliyevə inam və etimadını ifadə edən mühüm faktdır. 30 illik zəngin və şərəfli inkişaf yolu keçən YAP ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə edib.

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev çıxışında 30 il öncə Azərbaycanda mövcud ağır durumun yeni bir siyasi təşkilatın yaranması zərurətini ortaya qoyduğunu qeyd edib. Bildirib ki, bu məqsədlə Azərbaycanın bir qrup qabaqcıl ziyalısının xalqın iradəsini ifadə edən müraciətinə cavab olaraq ulu öndər Heydər Əliyev YAP-ın yaradılmasına razılıq verdi: "YAP müstəqilliyə qovuşan ölkəmizin həyatında ən təlatümlü, həyacanlı zamanda yaradıldı. Təsis edilməsinin 30-cu ildönümünü isə partiyamız ölkə tarixinin ən şanlı günlərində qeyd edir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan Yeni Azərbaycan Partiyasının 30 illik inkişaf tarixi göstərdi ki, partiyanı yaradanlar, bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar: "Bu gün Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Partiya ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə YAP-ın yaranma və inkişaf tarixindən bəhs edib. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin, atılan uğurlu addımların nəticələri Azərbaycanın və partiyamızın həyatında özünü aydın şəkildə göstərir.

Tədbirdə həmçinin Göygöl Rayon İcra Hakimiyyəti ərazi partiya təşkilatının sədri Sərdar Balayev, Yeni Qızılca kənd ərazi partiya təşkilatının sədri Ofelya Rəhimova çıxış edərək qeyd ediblər ki, Yeni Azərbaycan Partiyası daim tutduğu yola, fəaliyyəti üçün seçdiyi prinsiplərə sadiq olub, Partiyamızın Sədri, Prezident İlham Əliyevin fikirlərinə istinad etsək, partiyanın əsas ideoloji dayaqları müstəqillikdir, azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatlardır. Bu gün inamla deyə bilərik YAP ümumxalq partiyasıdır. Bu partiya ümummilli lider Heydər Əliyevin şah əsəridir.

Sonda partiya quruculuğu işində uzun müddət fəaliyyət göstərən və rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

### Xocavənd







Noyabrın 3-də Yeni Azərbaycan Partiyası (YAP) Xocavənd rayon təşkilatı tərəfindən partiyanın təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə tər güllər düzülüb. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

YAP Xocavənd rayon təşkilatının sədri Vüsal Hüseynov bildirib ki, zaman hadisələrə düzgün dəyər vermək, mahiyyətini dərk etmək baxımından yaddaşdır: "Tarixə nəzər salanda ölkəmizin, xalqımızın necə ağır, çətin günlərdən keçdiyini görürük. Milyonların sevgisini qazanan, sıralarında 800 minə yaxın üzvü birləşdirən, nəinki ölkənin, bölgənin aparıcı siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyası 1992-ci ildə zamanın tələbi, xalqın istəyi ilə yarandı. Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı zamandan məqsədyönlü fəaliyyət göstərərək ümumxalq partiyasına çevrilib. Yeni Azərbaycan Partiyası həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə böyük uğurlara imza atıb.

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov çıxışında qeyd edib ki, 30 il əvvəl 1992-ci il noyabrın 21-də respublikamızda çox əlamətdar ictimai-siyasi tarixi hadisə baş verdi. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə çox çətin, mürəkkəb tarixi bir şəraitdə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın tarixində çox böyük bir hadisədir. Yeni Azərbaycan Partiyası partiya quruculuğunun mütərəqqi prinsiplərini hər zaman əsas tutub. Partiyanın idealı yeni, müstəqil Azərbaycan yaratmaq olub.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov deyib ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan Yeni Azərbaycan Partiyası 30 illik zəngin və şərəfli inkişaf yolu keçib. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır.

Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxışında bildirib ki, Cənubi Qafqazın ən böyük partiyası olan YAP bu gün inkişaf edir. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Vətən müharibəsində Azərbaycan xalqı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz gücünü səfərbər edərək milli qürur və ləyaqətin bərpasına, işğal faktının, tarixi ədalətsizliyin aradan qaldırılmasına nail oldu.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov çıxışında söyləyib ki, Yeni Azərbaycan Partiyasının uğurlarının təməlində müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin yaradıcısı olması, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə zamanın ruhuna uyğun daha da təkmilləşməsi, yeniləşməsi, tutduğu yola sadiqliyi, sözlə əməl birliyi, monolitliyi, dövlətə, xalqa xidməti fəaliyyətinin önündə saxlayaraq yeni-yeni hədəflərə doğru inamla irəliləməsi dayanır. Tədbirdə əməkdar müəllim, partiya fəalı Telli Alıyeva, Vətən müharibəsi qazisi Hafiz Mirzəliyev və partiya fəalı Günel Quliyeva da çıxış ediblər.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri fərmanla təltif edilib. YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri, 44 günlük Vətən müharibəsində iştirak etmiş bir qrup müharibə iştirakçısına medallar təqdim olunub.

Ardı Səh. 11

# Yeni Azərbaycan Partiyası - 30

Əvvəli Səh.10

# YAP- zəfərlərlə dolu 30 il!

## Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş bir sıra tədbirlər keçirilib

### Saatlı

Noyabrın 3-də Saatlı şəhər Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu






Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə olunub. Sonra Saatlı "Şəhidlər abidə-xatirə" kompleksi ziyarət edilib, şəhidlərin xatirə lövhələrinin önünə gül dəstələri düzüblər. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən YAP Saatlı rayon təşkilatının sədri Lütvəli Şıxəliyev bildirib ki, güclü Lider ətrafında yaradılan Yeni Azərbaycan Partiyası qısa müddət ərzində xalqı öz ətrafında sıx birləşdirərək siyasi səhnədə yüksəlişə nail olaraq, Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qətiyyətli müdafiəçisi olub. O, qeyd edib ki, Vətən Müharibəsində qazanılmış tarixi Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda keçirilən Yeni Azərbaycan Partiyasının VII Qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələdir.

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov çıxışında Ulu Öndərin siyasi kursunun müasir dövrümüzün tələbləri əsasında davam etdirən Prezident İlham Əliyevin Azərbaycana Zəfər bəxş etmiş Ali Baş Komandan olduğunu vurğulayıb. Qeyd edib ki, işğaldan azad edilmiş ərazilərə Prezident İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səfərləri xalqımızda sonsuz qürur və iftixar, milli özünənam hissi yaradır, Zəfər yürüşünün fasiləsiz olaraq uğurla davam etdiyini göstərir.

YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov çıxışında ölkəmizin yüksək templə irəliləyişində Yeni Azərbaycan Partiyasının rolundan danışıb. Vurğulayıb ki, 30 ildir Respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edən, xalqın partiyası kimi tanınan, xalqın sevgisini və dəstəyini qazanan Yeni Azərbaycan Partiyası, ölkədə sabitliyin təminatında avanqard rolunu bu gündə davam etdirir. Qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Heydər Əliyev siyasəti təkcə nailiyyətlərimizin deyil, həm də gələcək uğurlarımızın həlledici əsasıdır.

Milli Məclisin deputatı Əziz Ələkbərli çıxışında Yeni Azərbaycan Partiyasının zərurətdən yaranmış avanqard qüvvə olduğunu bildirib, partiya yaranan zaman baş verən hadisələrdən bəhs edib. Yeni Azərbaycan Partiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf və qələbə yolunda əmin addımlarla irəlilədiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan ərazi bütövlüyünü hərbi - siyasi yolla təmin etməklə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyyad Salahlı çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması dövlətimizin siyasi taleyini, gələcək yolunu müəyyənləşdirən çox mühüm və əlamətdar hadisə olub. YAP qısa müddət ərzində milli seçim, Azərbaycan xalqının iradəsi əsasında hakimiyyətə gəlib, yeni Azərbaycan quruculuğunu təmin edərək ümumxalq partiyasına çevrilib.

Tədbirdə şəhid anası Vüsalə Tağıyeva, Vətən müharibəsi qazisi Elvin Abbasov və Saatlı rayon Məmmədabad kənd tam orta məktəbin müəllimi Rüfanə Mirzəyeva çıxış ediblər.

Tədbirin sonunda Saatlı rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

### Oğuz

Oğuz rayonunda Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini və rayon Şəhidlər xiyabanını ziyarət ediblər. Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov Yeni Azərbaycan Partiyasının 30 il ərzində olduqca şərəfli və məsuliyyətli yol qət etdiyini, öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini diqqətə çatdırıb. 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransının tarixi əhəmiyyətə malik olduğunu bildirib. Ümummilli Lider Heydər Əliyevin zəngin irsi əsasında və Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrətinin, beynəlxalq nüfuzunun daha da artacağına əminlik ifadə edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxışında vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yolu keçib. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır.

Milli Məclisinin deputatı Aqiyə Naxçıvanlı Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, partiyanın ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməsindən, dövlətçiliyimizin möhkəmlənməsinə və Azərbaycanın dinamik inkişafına öz töhfələrini verməsindən, qazanılan parlaq Qələbədən ətraflı bəhs edib.

Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov çıxışında bildirib ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan





vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir.

Tədbirdə partiya veteranı Azad Əliyev, Ərazi Partiya Təşkilat sədri Mehriban Abbasova, Qarabağ müharibəsinin iştirakçısı Ceyhun Səmədzadə və Vətən müharibəsi qəhrəmanı, şəhid Nail İbrahimlinin anası Aqibət İbrahimova çıxış ediblər.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, partiya sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri, II Qarabağ müharibəsi iştirakçılarına isə "Vətən Müharibəsi iştirakçısı" medalları təqdim olunub.

# Azərbaycanda əhalinin yaşlanması sürətlənib

**Əmək qabiliyyətli yaşda olan əhali sayının artımı ilə müqayisədə yaşlanma daha sürətlə baş verir. SİA-nın məlumatına görə, bu barədə Hesablama Palatasının Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il üçün büdcə layihəsinə bu gün dərc edilən rəyində deyilir.**

Qeyd edilir ki, pensiya təminatı sisteminin qiymətləndirilməsində nəzərə alınması zəruri hesab edilən göstəricilərdən biri də yaşlılıq asılılığı əmsalıdır (old age dependency ratio).

Bu göstərici iqtisadi cəhətdən qeyri-fəal yaşda (65 yaş və yuxarı) olan insanların sayının əmək qabiliyyətli yaşda (15-64 yaş) olan insanların sayına nisbəti kimi müəy-



yən edilir. 2021-ci ilin 01 yanvar tarixinə əmək qabiliyyətli yaşda olan hər 100 nəfərə 10,7 65 yaşdan yuxarı yaşda şəxs düşdüyü halda, 2022-ci ilin müvafiq dövründə bu göstərici 11,3 olmuşdur ki, bu dinamika ölkədə əmək qabiliyyətli yaşda olan əhali sayının artımı ilə müqayisədə yaşlanmanın daha sürətlə baş verdiyini əks etdirir.

# Repetitorlar təhsilimizdə hansı problemlər yaradır?

Repetitor (ingiliscə) "ev müəllimi, mentor, tərbiyəçi" deməkdir. İngiltərədə repetitorluq "universitet təhsilinin əsas metodu" və tələbələr üçün ən dəyərli şəxs, rəhbərlik vasitəsi kimi tanınır. Repetitorluq Oksford və Kembric universitetləri dövründən (XII-XIII əsrlər) mövcud olmuşdur. XVI əsrin sonlarında repetitor universitet təhsilində mərkəzi fiqur olur. 17-ci əsrdə repetitorun fəaliyyət dairəsi xeyli genişlənir və onun tərbiyəvi funksiyaları böyük əhəmiyyət kəsb etməyə başlayır. Repetitor sistemi rəsmi olaraq sırf ingilis universitet sistemi kimi tanınır və tədricən professoru əvəz edir. XIII-XIV əsrlərdə (yalnız ölkənin ən qədim universitetlərində) repetitor sistemi tədrisdə mərkəzi yer tutur və mühazirə sistemi ona əlavə kimi xidmət etməyə başlayır. Bu vəziyyət bu günə kimi qalmaqdadır. Repetitor sistemi dedikdə 1-2 tələbənin (yeni universitetlərdə - 5-6) təhsil müddətində repetitorla müntəzəm dərsləri nəzərdə tutulur. Hər bir tələbə təhsilinə, universitetdə qaldığı müddət ərzində həyatına və istehsalat təcrübəsinə nəzarət edən repetitora rəsmi bağlanmış sayılır. Tərbiyəçi təkcə müəllim kimi deyil, həm də tələbənin düşünmə qabiliyyətini və intellektual bacarıqlarını inkişaf etdirməyə kömək edən mentor kimi qəbul edilir. Tələbənin inkişafını və mütəxəssis kimi formalaşmasını repetitor diqqətdə saxlayır.





Ölkəmizdə isə Universitetlərdə və məktəblərdə repetitorluq təcrübəsinin inkişafı 21-ci əsrin əvvəllərində başlamışdır. Məktəbə qoyulan yeni tələblər yeni iş formalarını tələb edir ki, məhdudiyyətlər aradan qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir.

Repetitor xidmətini göstərən şəxsin əvvəl dərs keçdiyi yerə getməsi və evində repititor kimi fəaliyyət göstərməsi üçün "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməlidir. Şagirdlərin repetitor xidməti almaq üçün müəllimin yanına getməsi üçün isə gün ərzində 8103 - ə 2 rəqəmini yazaraq yalnız bir dəfə 3 saatlıq gedə bilər.

Müəllim gün ərzində istədiyi qədər repetitor kimi fəaliyyətini davam etdirə bilər, bir şərtlə ki, "icaze.e-gov.az" portalında qeydiyyatdan olsun, amma şagird gün ərzində bu xidmətdən yalnız 1 dəfə, ondan da 3 saat ərzində istifadə edə bilər. Ekspertlər deyir ki, hazırda ən acınacaqlı vəziyyət xarici dillərin tədrisi ilə bağlıdır.



Belə ki, orta məktəblərdə xarici dilin, xüsusi ilə də ingilis dilinin tədrisi o qədər aşağı səviyyədə tədris olunur ki, şagirdlər məcbur olub əlavə vəsait hesabına xarici dili öyrənmək üçün hazırlıq kurslarına, dil kurslarına gedirlər. Bu, həm xarici dili tədris edən müəllimlərin bilik və bacarıqlarının aşağı səviyyəli olması ilə əlaqədardır, həm də onlar qəsdən aşağı səviyyədə dərs keçir ki, şagirdlər onların yanına ödənişli olaraq hazırlığa gəlsinlər.

SİA mövzu ilə bağlı araşdırma aparıb. Aparılan araşdırmalara görə repetitorların yanına getmək üçün qiymətlər təxminən belədir: İbtibadi və 5-6-cı sinif şagirdləri üçün hazırlıqlar həftədə iki dəfə olmaqla 50 manat, həftədə 3 dəfə olmaqla isə 70 manat, 10-11-ci sinif şagirdləri üçün isə 70-80 manatdır. Orta hesabla hər şagirdi 50-70 manata hazırlaşdırırlar, bu ayda təxminən 1000-15000, 1400-2100 manat deməkdir.

Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti İctimai Birliyinin namizədi İlqar Orucov: "Repetitorluq fəaliyyəti nəinki ölkəmizdə, bütün dünyada təhsil səviyyəsi yüksək olan ölkələrdə belə bu xidmət mövcuddur. Yaponiya, Böyük Britaniya, Cənubi Koreya kimi ölkələrdə təhsilin səviyyəsi yüksək səviyyədədir. Amma buna baxmayaraq həmin ölkələrdə repetitorluq heç də Azərbaycandan az yayılmayıb. Həmin ölkələrdə repetitorluğun mahiyyəti ilə ölkəmizdəki repetitorluğun mahiyyəti tamam fərqlidir. İnsanlar təbii ki hər zaman öyrənmək üçün yollar axtarırlar və öyrənməyin əlavə resurslardan biri kimi repetitorluq xidmətindən istifadə edirlər.

Amma Azərbaycanda repetitorluq fəaliyyəti bir az fərqlidir.

Tutaq ki, hansısa bir dil öyrənmək istəyirsinizsə, hansı yaşda olmağınızdan asılı olmayaraq təbii ki, repetitor yanına getməli olursunuz. Bu, normal bir haldır. Amma məktəb yaşda uşaqların bütövlükdə proqramın mənimsənilməsi ilə bağlı repetitor yanına getməsi düşündürücüdür. Bizim məktəblər biliyi o səviyyədə verməlidirlər ki, insanlar məhz məktəb biliyi əsasında ali təhsil müəssisələrinə daxil olmaq imkanı olsun. Əgər bu yoxdursa, yəni ali təhsil müəssisəsinə qəbul olmaq şansı yalnız repetitorluqdan keçirsə, əlbəttə, bu, zərərlidir. Reallıq da budur ki, həqiqətən də, ölkəmizdə orta məktəblər o səviyyədə bilik vermirlər ki, bizim uşaqlar orta məktəb biliyi ilə gedib ali məktəblərə daxil olsunlar. Bunu faizlə araşdırsa, çox az olduğunu görəcəyik.

Amma əslində, bu, belə olmalı deyil. Repetitorluğun geniş yayılması məhz sadaladığımız tərəfləri ilə zərərlidir. Böyük Britaniya kimi bir dövlətdə şagirdlər repetitorlardan ali məktəblərə qəbul olunmaq üçün yox, əlavə biliklər almaq, bilikləri daha da dərinləşdirmək, digər xarici dillər öyrənmək üçün istifadə edirlər. Bizə də siqnallar daxil olur hansı ki, bizim məktəblərdə də yaxşı müəllimlər var və onlar dərsi o keyfiyyətdə keçməyə maraqlı deyillər. Keyfiyyətsiz səviyyədə təşkil edirlər və onlar maraqlıdırlar ki, uşaq mənim yanıma məhz repetitor xidmətindən istifadə etmək üçün gəlsin. Müəllim şagirdə real olaraq məhz bu formada yanaşırsa, əlbəttə, bununla bağlı tədbirlər görməli və nəzarət mexanizmləri işlənməlidir. Repetitor düşünürsə ki, mən sinifdə dərs keçməyəcəm və şagirdlərə əlavə ödəniş müqabilində xidmətə cəlb edəcəm, əlbəttə, bu, çox yanlış düşüncədir və buna qarşı cəza tədbirləri görülməlidir".

***Havar Şəfiyeva***

# "İranda ictimai siyasi vəziyyət çox gərgindir"

**"Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında Soçidə keçirilmiş gərgin görüşdən sonra Ermənistanın baş naziri Nikol Paşinyan İrana səfər etdi və bu səfər həm də İranla Ermənistan arasında yaxınlaşmanın bir nümunəsidir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq İlyas Hüseynov deyib.**

Onun sözlərinə görə, İran son dövrlər Azərbaycana qarşı çox qərəzli mövqedən çıxış edir: "Bir müddət öncə Azərbaycan sərhədlərində İran yenidən hərbi təlimlər keçirdi və Vətən müharibəsindən sonra sayca artıq ikinci hərbi təlimlərdir. İranın televiziyasında Azərbaycana yönəlik çox qərəzli mahnılar və proqramlar hazırlanır və Azərbaycan dilində yayımlanır. Digər tərəfdən bu gün İranda ictimai siyasi vəziyyət çox gərgindir və əhali ayağa qalxıb, rejimin hakimiyyətdən getməsini tələb edir. Burada əsas tələb dini liderlərin hakimiyyətdən uzaqlaşdırılmasıdır və bunu yaradan bir sıra səbəblər vardır. Bir sözlə, 1979-cu ildən bu hakimiyyət formalaşdırılsa da İranın daxilində artıq insanlar bu hakimiyyətin altında qalmağı doğru hesab etmirlər. Digər tərəfdən İranda etnik azərbaycanlıların bütün hüquqları pozulur, öz dilində oxumaq, yazmaq, təhsil almaq və KİV-lərə sahib olmaq hüquqları pozulur və eyni zamanda, Vətən müharibəsindən sonra İran çox qərəzli mövqedən çıxış edir. 30 illik işğal dövründə əli azərbaycanlıların qanına batmış Sarkisyan və Köçəryanla əlaqələr quran İran tərəfi həm də işğala hər hansısa fikir bildirmirdi. Azərbaycan ərazi bütövlüyündən çıxış edən İran yalnız növbətçi bəyanatlarla kifayətlənirdi. Lakin həm də kriminal xunta rejiminin nümayəndələrinə qucaq açırdı, onlarla isti münasibətlər qurulurdu".



Politoloq onu da bildirdi ki, bu gün də İran Ermənistan münasibətləri kifayət qədər yaxınlaşıb və Zəngəzur dəhlizinin açılmasına qarşı İran tərəfi çıxış edir və bunu geosiyasi dəyişikliklər, qırmızı cizgilər adlandırır və bu tamamilə yalnış yanaşadır: "Zəngəzur dəhlizi bölgənin iqtisadi rifahına həris olunub, iqtisadi rifahını gücləndirmək üçündür. Lakin İran yalnış olaraq bu prosesləri anlayır. Digər tərəfdən İran Ermənistan münasibətlərində İrəvanın təşəbbüs göstərməsi də özünü göstərir və bu səfər çərçivəsində həm də İranın pilotsuz uçuş aparatlarının Ermənistan tərəfindən alınması müzakirə olunmuşdur. Bu isə milli təhlükəsizliyimizə açıq təhdidir və bununla bağlı da Azərbaycan tərəfi düşünürəm ki, öz premetiv tədbirlərini həyata keçirtməlidir ki, təhlükəsizliyimiz tam həçimdə təmin olunsun və istənilən təxribatlarında qarşısı alınsın".

***Gülyanə***

# Zəfər Günü - Həmrəylikdən Dəmir yumruğa gedən yol



**MUXTAR NAĞIYEV,**
**YAP Səbail rayon təşkilatının sədri**

Dövlətçilik tariximizi şərəfləndirən bayram günlərilə zəngin noyabr ayı artıq ikinci ildir ki, bizim üçün daha da əlamətdardır. Çünki Ali Baş Komandan, Prezident İlham Əliyevin ötən il imzaladığı sərəncamı ilə hər il noyabrın 8-i respublikamızda Zəfər Günü kii təntənəli şəkildə qeyd edilir. Çünki bu tarix bütün dünyaya Qalib Azərbaycanın torpaqlarının bir qarışının belə düşmənə verməxdiyini göstərdi. Və sentyabr ayının 27-dən başlanan Vətən müharibəsinin hərbi əməliyyatlar dövrü məhz bu tarixdə başa çatdı. Şuşanın Azərbaycan tərəfindən azad edilməsindən sonra çıxış yolu qalmayan Ermənistan Azərbaycan Prezidenti, Ali baş Komandan İlham Əliyevin şərtləri ilə kapitulyasiya aktına imza atmağa məcbur oldu. Sərəncamda deyildiyi kimi, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarıldı.

Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində Vətən savaşı qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən və milli qürurumuzun təntənəsinə çevrilən 8 noyabr Zəfər günümüz gələcək bütün tariximizdə daim yaşayacaq.

Belə bir fikir var: tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa! Bəli , artıq iki ildir ki, 8 noyabrda Ali Baş Komandanımızın, Müzəffər Ordumuzun və rəşadətli əsgər və zabitlərimizin şücəati ilə 8 noyabrda göz bəbəyimiz Şuşamız işğaldan azad olundu və üçrəngli bayrağımız Şuşamızda dalğalanmaqdadır.Xalq-İqtidar- Ordu birliyinin "Dəmir yumruqla" Zəfər Günü yazıldı. Prezident İlham Əliyev: "Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir". Bu sözləri dövlət başçımız Prezident İlham Əliyev dekabrın 29-da dünya azərbaycanlılarını təbrik edərkən bildirmişdir. Qalib Sərkərdə, Prezident İlham Əliyev bildirmişdir ki, bu qələbə xalq-iqtidar-ordu birliyinin Şanlı Zəfər Qələbəsidir: "Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir".

Bəli, bu qələbə xalq-iqtidar-ordumuzun birliyinin nəticəsidir. Bu, "Qarabağ Azərbaycandır və nida" deyən Qalib Sərkərdəmizin "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun qəhrəman əsgər və zabitlərinin rəşadəti ilə dünya müharibələrində qazana bilmədiyi 44 gün ərzində qazandığı Qələbə Zəfəridir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən 2783 nəfər igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Bu gün bu şanlı tarixin yazılmasının əsas memarı - Ali Baş Komandan, Qalib Sərkərdə İlham Əliyev cənabları son 18 ildə yumruq siyasəti nəticəsində, xalq-iqtidar birliyinin yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşməsidir ki, Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoydu. Və xoş xəbərləri xalqına özü birbaşa çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər işğaldan azad olan torpaq müjdəsini səsləndirəndə "Qarabağ Azərbaycandır!" deyərkən simvolik olaraq yumruğunu da qaldırdı. Bunun da məntiqli mənası odur ki, həmrəy olub bir yumruq kimi birləşib Qarabağı düşməndən azad etdik. Bu birliyin köməyinə həmrəylik gəldi. "Dəmir yumruq" həmrəylik gücümüzün simvoluna çevrildi. Həmrəylikdən gələn 30 illik haqq yolu dəmir yumruğa çevrilib düşmənin saxtalaşdırdığı illərin yalanını üzə çıxardı. Ədalətimizi həmrəylik gücü ilə bərpa etdi.Ölkə rəhbərimiz, Ali baş Komandanımız İlham Əliyev xalqa müraciətdə bu böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

Budur, Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti! Budur, xalqının Prezidenti olmaq! Budur, Liderlik missiyası! Bəli, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev bu tarixi qələbəni bir daha əbədiləşdirdi. Bir sözlə, 8 noyabr, 2020-ci il - Qələbə, həmrəylik bayramının haqqını verə bildik öz qələbəmizlə, yekdil birliyimzlə... Zəfər Günümüz mübarək, Azərbaycan! Həmişə birlikdə olaq! Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!





# Məktəbə, yoxsa alverə?

**Mətanət MƏMMƏDOVA**

Görəsən valideynlər hara baxır? Bu, müasir dövrümüzdə demək olar ki, ən tez-tez verilən suallardandır. Bu günlər qarşılaşdığım bir xəbərlə yenə də həmin sual ortaya çıxdı: azyaşlıları küçə ticarətinə cəlb edən şəxs polis tərəfindən müəyyən olunaraq inzibati məsuliyyətə cəlb edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, paytaxtın mərkəzi küçələrində azyaşlılar vasitəsilə gül, salfet, ətir və digər əşyaların satışını təşkil edən 1984-cü il təvəllüdlü İbrahim Mustafayev barəsində məhkəmə qərarı ilə 30 sutka inzibati həbs tənbeh tədbiri tətbiq olunub.

Maraqlıdır, görəsən bu azyaşlıların valideynləri hara baxır ki, onların övladları belə bir adamla tanış olur, onunla iş barədə "müqavilə" bağlayır, küçələrdə alverlə məşğul olur? Həmin bu şəxs-İbrahim Yusifov onların övladlarını harada başına yığır, "dərs" verir, ticarət haqqında məlumatlandırır, bu uşaqlarla öz biznesini qurur, bundan valideynin xəbəri olmur. İbrahim adlı bu şəxs çox yəqin ki, səhərlər yaratdığı bu qrupun üzvlərini toplayır, satacaqları məhsullarla təmin edir, işə göndərir, axşam saatlarında isə günün son toplantısını keçirib uşaqların zəhmətini mənimsəyib, onlara da cüzi "əmək haqqı" verirmiş.

Həqiqətən maraqlıdır, bu uşaqlar məktəbə getmirlər? Görəsən onların sinifdə olmadıqları heçmi fərq olunmur? Yaxşı bu uşaq dərs vaxtı bəs haradadır, nə işlə məşğuldur? Bu barədə onların valideynləri ilə əlaqə saxlanıbmı heç? Uşağın ya məktəbdə, ya da evdə-valideyninin yanında olmasından başqa variant düşünülmədiyinə görə bu qənaətə gəlirəm. Və sual verirəm, bizim azyaşlıların küçələrdə nə işi var?

Ya müəllim, ya valideyn axı bu uşağın həyatına, sağlamlığına cavabdehdirlər. Yaxşı, düşünək ki, uşaq məktəbə getmək adı ilə evdən çıxıb, məktəbə yollanır, lakin məktəbə çatmamış İbrahim kimi cəmiyyətin üz qarası onu yoldaca yolundan edir. Bəs məktəbdə bu uşağın olmaması valideyninə bildirilirmi?

Yaxşı, müəllim çağırıb valideynə uşağının məktəbdə olmadığını deyib. Uşaq məktəbdə də, evdə də deyil, bəs haradadır? Bunun üçün narahat olan varmı? Məktəbdən uşağın məktəbə gəlmədiyini duyan valideyni görəsən övladının harada olması narahat edirmi? Edirsə, nə üçün uşaq küçədə, İbrahimin qrupunda fəaliyyətdədir?

Nədir bu uşaqların günahı? Nə üçün onlar öz yaşıdları kimi məktəblərdə, parta arxasında deyillər? Nə üçün onlar bəlkə də sinfin əlaçısı ola biləcəkləri halda İbrahimin "ticarət obyektinin" fəallarıdırlar? Bəlkə bu uşaqlar sabahkı cəmiyyətimizin ən ziyalı üzvü ola bilərlər? Ölkəmizin ən layiqli vətəndaşı ola bilərlər?

Nə üçün onlar məktəbdə deyil, küçədədirlər? Nədir onları küçələrə sövq edən? Valideyn məsuliyyətsizliyimi? Belədirsə, nə üçün dünyaya gətirirsiniz bu uşaqları? Nə üçün? Nədir onların günahı? Nə üçün onların uşaqlığını əlindən alırsınız? Nə üçün onların əllərindən kitablarını, oyuncaqlarını alıb, gül, salfet, ətir verib küçələrə yollayırsınız? Nə üçün? Axı siz bundan çox yaxşı xəbərdarsınız?

Bu ölkədə kimin ixtiyarı çatar ki, kiminsə övladını mənimsəyib onu alverə sövq edə? O adamın ixtiyarı çatar ki, bu uşaqların nəzarətsizliyinə tamamilə əmindir. Bax yalnız bu halda İbrahimkimilər bizim gül balalarımızın əməyini mənimsəyib onları qul kimi işlədə bilər. Buna isə səbəbkar valideynlərdir.

Saxlaya bilməyəcəyiniz uşağı nə üçün dünyaya gətirirsiniz? Gətirməyin, qıymayın onlara. Öz işlərinizin, problemlərinizin qurbanı etməyin onları. Yaxşı, bir səhv edib gətirmisiniz dünyaya. Onlara vaxt ayıra bilmirsinizsə, verin dövlət uşaq müəssisələrinə. Qoyun dövlətimiz onların qayğısını çəksin. Belə uşaqlar az deyil ki...

Uşaqlarımızın yeri küçələr deyil. Bunu anlamaq lazımdır. Uşaqlar sizin qazanc gətirəniniz deyil, bunu başa düşmək lazımdır. Bu cür böyüməsinə izn verdiyiniz uşaqların gələcəyini öz əllərinizlə məhv edirsiniz. Bu gün küçələrdə kiçik alverlə məşğul olan övladlarınızın sabah bu işi nə ilə davam etdirəcəyi barədə heç düşünürsünüzmü?

Sabahın gec olacağını nəzərə alıb, elə bu gün həyacan təbilini çalmaq lazımdır. Əziz valideynlər və müəllimlər, uşaqlarımızın gələcəyi sizlərdən asılıdır. Əl-ələ verib onların məhv olmasına yol verməyək... Bu işdə vəzifəsinin öhdəsindən gələ bilməyənlər öz vəzifəsindən imtina etsin. Vicdan naminə!

# İranda etirazlar: yalan kim, yaman kim?

## ABŞ Tehranın BMT-nin Qadının Statusu Komissiyasından çıxarılmasını istəyir



**BMT Təhlükəsizlik Şurası çərşənbə günü İrandakı etirazlarla bağlı qeyri-rəsmi iclas keçirib. Tədbirin keçirilməsində məqsəd İran xalqına dəstək olub. Bununla belə, bir sıra şura üzvləri (o cümlədən Rusiya) bunun üçün platformanın seçilməsindən çaşqınlıqlarını ifadə etdilər və görüşün həmtəşkilatçısı olan ABŞ hakimiyyətini fərqli məqsədlər güdməkdə günahlandırıblar.**

BMT Təhlükəsizlik Şurasının qeyri-rəsmi iclası Qərb ölkələri tərəfindən getdikcə daha çox insan haqlarının ən ağır şəkildə pozulmasında ittiham etdiyi İranda davam edən etiraz hərəkatına həsr olunub. Bu görüşün keçirilməsi təşəbbüsü ilə ABŞ və Albaniya çıxış edib.

İranda kütləvi etirazlar sentyabrın 16-da İranın Sekkez şəhərində 22 yaşlı kürd qadın Məhsa Əmininin dəfn mərasimi zamanı başlayıb. Bir neçə gün əvvəl səlahiyyətlilər onu hicabın düzgün geyinmədiyinə görə saxlayıblar. Polis bölməsində halı xarablaşan qadın xəstəxanaya çatdırılsa da orada ölüb. Hakimiyyətdə və qadının yaxınlarında baş verənlərlə bağlı iki fərqli versiya var: birincisi ölümün uzun sürən xəstəlik nəticəsində baş verdiyini, ikincisi isə həbs zamanı döyülmələrin buna səbəb olduğunu deyir.

İran prezidenti İbrahim Rəisi araşdırma aparılmasına göstəriş verib. Tibbi rəydə göstərilir ki, qız döyülməyib, etirazçılar isə buna qətiyyən inanmayıblar. Etiraz hərəkatı İranın demək olar ki, bütün əyalətlərini əhatə edib və sosial şüarlar arasında rejimin dəyişdirilməsi çağırışı və İranın ali lideri Ayətullah Əli Xamenei üçün ölüm arzuları ilə bağlı siyasi şüarlar tez-tez görünməyə başlayıb. Bununla bağlı İran prezidenti ABŞ-ı ölkədəki sabitliyi pozmaqda ittiham edib.

Hicab İranı necə silkələdi

BMT Təhlükəsizlik Şurasındakı iclasdan bir müddət əvvəl İranın təşkilatdakı daimi nümayəndəsi Əmir Səid İrəvani də təxminən eyni fikri səsləndirib. O, jurnalistlərə deyib ki, "ABŞ növbəti dəfə dezinformasiya və açıq ikiüzlülük kampaniyasına əl atır". İran xalqı sanksiyalardan əziyyət çəkir, həyati vacib dərman və qida çatışmazlığından əziyyət çəkir, ABŞ "insan hüquqları kimi dəyərli anlayışdan sui-istifadə etmək və öz siyasi gündəmini inkişaf etdirmək üçün BMT platformaları və resurslarını manipulyasiya etmək kimi standart təcrübədən" istifadə etməyə davam edir.

Birləşmiş Ştatların həqiqətən də bu görüş üçün proqram planları var və onlar BMT-də və onun platformalarında islahatların aparılması kimi çoxdan elan edilmiş məqsədlə bağlıdır. Görüşdən əvvəl ABŞ-ın vitse-prezidenti Kamala Harris bildirib ki, Vaşinqton İranın BMT-nin Qadınların Vəziyyəti Komissiyasından çıxarılmasının tərəfdarıdır.

"Birləşmiş Ştatlar hesab edir ki, qadınların və qızların hüquqlarını sistematik şəkildə pozan heç bir ölkə bu hüquqların qorunması ilə məşğul olan hər hansı beynəlxalq və ya Birləşmiş Millətlər Təşkilatında rol oynamamalıdır" xanım Harris deyib.

Belə ki, BMT Təhlükəsizlik Şurasındakı qeyri-rəsmi toplantı bu qərar üçün beynəlxalq zəmin hazırlamaq məqsədi daşıyırdı. Və İranın komissiyadan çıxarılması ilə bağlı qətnamənin təşəbbüskarlarından biri olan BMT-nin müşahidə təşkilatının proqnozuna görə, böyük ehtimalla 28 ölkə bu təşəbbüsü dəstəkləyəcək. Rusiya Federasiyası və Çin də daxil olmaqla 11 dövlət əleyhinə səs verəcək. Daha 15 dövlətin isə səsvermədə bitərəf qalacağı və ya iştirak etməyəcəyi gözlənilir.

İranın beynəlxalq təşkilatlarda yeri olmadığı mövqeyi görüşə dəvət olunan ekspertləri faktlarla dəstəkləməyə çağırılıb. İranda insan haqlarının vəziyyəti üzrə xüsusi məruzəçi Cavid Rəhman deyib ki, respublikada qadınlar "hələ də ailə qanunlarında, o cümlədən nikah, boşanma, qəyyumluq və qəyyumluq qanunlarında ciddi ayrı-seçkiliklə üzləşirlər". O, həmçinin İranın etirazları amansızlıqla yatırmasına da işarə edib. Ekspertin sözlərinə görə, hakimiyyətin hərəkətləri nəticəsində yüzlərlə qadın və onlarla uşaq həlak olub. Bundan əlavə, cənab Rəhman qızın ölümünü xəbər verən jurnalistlərin taleyindən narahat olduğunu bildirib. Onun sözlərinə görə, hazırda media nümayəndələri istintaq altındadır və onları çox ciddi cəzalar gözləyir. Spiker hadisə ilə bağlı şəffaf araşdırma aparılmasına və İran rəsmilərinin məsuliyyətə cəlb olunmasına çağırıb.

Daha sonra iranlı hüquq müdafiəçisi, Nobel Sülh Mükafatı laureatı Şirin Ebadi telekörpüdə çıxış edərək təkcə İran hakimiyyətinin məsuliyyətə cəlb edilməsini deyil, həm də İrandakı bütün səfirliklərin bağlanmasını tələb edib. O, əmindir ki, belə bir addımı özünü sivil hesab edən ölkələr atmalıdır. Bundan əlavə, "İran xalqı bu vəziyyətdə Qərb hökumətlərindən, xüsusən də Amerika Birləşmiş Ştatlarından rejimin sağ qalmasına kömək edəcək hər hansı saziş imzalamaqdan çəkinmələrini xahiş edir, çünki İslam Respublikası xalqın xeyrinə vəsait xərcləmir.

Növbəti məruzəçi, iranlı əsilli britaniyalı və amerikalı aktrisa, insan haqları sahəsində fəallıq göstərən Nazanin Boniadi İrandakı hazırkı etirazların bəlkə də onun yaddaşında qalan ən önəmli hadisələri bir daha xatırlatdığını söyləyib. Xanım Boniadi ölkədə vəziyyəti dəyişməyin yeganə yolunun bəzi Qərb ölkələrinin ümidinin əksinə olaraq heç bir transformasiyaya məruz qalmayan hakimiyyəti dəyişmək olduğuna əminliyini ifadə edib. "Bu barədə səhv etmək olmaz" deyə bildirib.

Onun sözlərinə görə, "İranlı kişilər və qadınlar bu gün təkcə İranda qadınları təcrid və sıxışdırmaqla deyil, həm də bütün iranlıların ifadə, birləşmə və toplaşma azadlığını inkar etməklə öz gücünü qoruyub saxlayan İslam Respublikasının gender aparteid rejiminə qarşı çiyin-çiyinə dayanırlar.

ABŞ-ın BMT-dəki səfiri Linda Tomas-Qrinfild xanım Boniadinin nitqindən açıq-aydın emosional şəkildə təsirlənib və bu çıxış zamanı dua edirmiş kimi əllərini bir-birinə birləşdirib. Xanım Tomas-Qrinfild "inanılmaz dərəcədə güclü çıxışa" görə spikerə təşəkkür etdikdən sonra "Məhsa Əmininin qətli"nə və etirazlarda iştirak edən digər qadınlara görə İran hakimiyyətinə tənqidi fikirlər də söyləyib. "Biz bu qəddar repressiya aktlarını və cinayətləri pisləməliyik. Üstəlik, biz sözlərimizi əməllərlə dəstəkləməliyik... Bu səbəbdən, vitse-prezident Harrisin bu gün elan etdiyi kimi, biz İran İslam Respublikasının BMT-nin Qadınların Statusu Komissiyasından çıxarılması üçün digər üzv dövlətlərlə birlikdə işləyəcəyik".

Albaniya və Böyük Britaniya kimi ABŞ-ın əsas müttəfiqləri bu mövqeyi dəstəkləyiblər. Bu arada, BMT Təhlükəsizlik Şurasının yerində bu görüşün əsaslılığına şübhə ilə yanaşan diplomatlar da olub. Məsələn, Meksika nümayəndəsi İranda baş verənlərlə razılaşmadığını bildirsə də, bu məsələlərin insan haqlarına birbaşa aidiyyəti olan digər forumlarda da müzakirə edilməli olduğunu, xüsusən də bu, beynəlxalq təhlükəsizliyə təhlükə yaratmadığı halda, müzakirə edilməli olduğunu bildirib.

Çin nümayəndəsi prosedurlarla uyğunsuzluğu da qeyd edib. Onun sözlərinə görə, bu yaxınlarda İranda baş verənlər yalnız İranın daxili işlərinə aiddir və beynəlxalq sülh və təhlükəsizliklə heç bir əlaqəsi yoxdur, ona görə də bu, Təhlükəsizlik Şurasının iclasının gündəliyinə çevrilməməlidir. "Çin həmişə demokratiya və insan haqları adı altında başqa ölkələrin daxili işlərinə müdaxilənin əleyhinə olub", - diplomat təkid edib.

Rusiya Federasiyasının nümayəndəsi Dmitri Vorobyov görüşün mövzusu ilə bağlı çaşqın fikirlər səsləndirib və xatırladıb ki, digər ölkələrdə - Brüssel, London, Paris, Berlində baş verən xalq iğtişaşları da İrandakına bənzər şəkildə olub. Eləcə də ABŞ-da kütləvi etiraz aksiyaları iştirak edənləri də hökumətin polisi çox qəddarcasına döyürdü. 2020-2021-ci illərdə afroamerikalı Corc Floydun ölümü və ya keçmiş prezident seçkiləri ilə bağlı iğtişaşları da bura aid etmək olar.

Diplomat həmçinin suverenliyin qorunmasının, "dövlətlərin bərabərliyinin, onların daxili işlərinə qarışmamasının" zəruriliyini xatırladıb. Bunun fonunda o bildirib ki, insan haqları vətəndaşlar üçün bəlkə də ən dəyərlidir. Əlavə etdi: "Biz istərdik ki, bütün dünyada məhz belə olsun, amma burada sadəlövhlər yoxdur".

Vorobyov görüşün təşəbbüskarlarını məsələyə "fərqli" yanaşmada ittiham edib. O, Meksika nümayəndəsinin əvvəlki mesajını xatırladıb və bildirib ki, insan hüquqları sahəsində heç bir beynəlxalq sənəd Təhlükəsizlik Şurasına insan hüquqları sahəsində hər hansı nəzarət funksiyasının verilməsini nəzərdə tutmur".

Bəli İranda baş verənlərdən hər dövlət, hər təşkilat öz ölçüsünü aparır. İran adlanan dövlətdə yaşayan xalqlar isə 43 il bundan əvvəl özlərinin yaratdığı rejimin məngənəsində sıxılmaqdadırlar. Dünya isə hələ də susur.

**V.VƏLİYEV**

# Ekoloji problemlər necə həll ediləcək?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" çərçivəsində hazırlanıb.

**Ölkənin hazırda üzləşdiyi ekoloji problemlərin əksəriyyəti iqtisadi inkişaf proseslərində ətraf mühitin qorunması məsələlərinin nəzərə alınmaması ilə bağlıdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölkənin ekologiyası sahəsində bir sıra mühüm sənədlər qəbul edilib. Müvafiq proqramlar və tədbirlər planı hazırda icra olunmaqdadır. Bununla belə, ölkədə ətraf mühitin davamlı idarə olunması öz vacibliyinə görə gələcəkdə də ən öndə olan və daim diqqət tələb edən məsələ olaraq qalacaqdır.**

Torpaq örtüyünün korlanması nəticəsində onun eroziyası və şoranlaşması kənd təsərrüfatı istehsalına və əhalinin torpaqdan gəlir vasitəsi kimi istifadə imkanlarına mənfi təsirini göstərir. Ölkə ərazisinin 60%-i yəni 672 min hektarı orta və şiddətli eroziyaya məruz qalıb. Torpaqların eroziyaya uğramasının əsas səbəblərindən biri də bəzi yerlərdə meşə örtüyünün sürətlə seyrəldilməsidir.

Kür-Araz ovalığında və Abşeron yarımadasında bir çox ərazilər hazırda yerli sənaye müəssisələrinin çirkli tullantılarının təsirinə məruz qalır ki, bu da həmin ərazilərdə torpaqda və qida məhsullarında ağır metalların və davamlı üzvi çirkləndiricilərin yığılmasına səbəb olur. Belə ki, Abşeron yarımadasında hazırda təxminən 10 min hektar torpaq sahəsi neftlə çirklənmişdir və bu, təbii biotoplara mənfi təsir göstərərək səhralaşmaya aparıb çıxarır.

Respublikada həm stasionar, həm də səyyar mənbələrdən havaya atılan çirkləndirici maddələrin ümumi miqdarı azalma meyilli olub ki, bu da, qismən 1990-cı illərin əvvəllərində baş vermiş iqtisadi tənəzzüllə bağlıdır. Lakin son dövrlərdə iqtisadiyyatda baş verən inkişafla paralel olaraq, havaya atılan zərərli maddələrin həcmi də artır. Havanın çirklənməsi paytaxt Bakı şəhərində və digər iri şəhərlərdə, o cümlədən, kimya sənayesi mərkəzi hesab edilən Sumqayıtda ciddi xarakter alıb. Atmosferin çirklənməsinə həm nəqliyyat vasitələri, həm də elektrik stansiyaları və sənaye obyektləri təsir göstərir.

Böyük şəhərlərdə nəqliyyat vasitələri havanın çirklənməsinin əsas mənbəyidir. Respublikada avtomaşınların sayı 1,5 milyonu keçmişdir. Avtomobil parkının köhnəlməsi, avtomobillərin yoxlanılması və texniki xidmətin lazımi səviyyədə olmaması, aşağı keyfiyyətli yanacaqdan istifadə havanın çirklənməsini daha da gücləndirir. Atmosferə daxil olmuş zərərli maddələrin ümumi həcminin 61%-ni avtomobil nəqliyyatından buraxılan tullantılar təşkil edir. Stasionar mənbələrdən atmosferə atılan zərərli maddələrin 79%-i Bakı şəhərinin payına düşür.

Son dövrlərdə Azərbaycanda həm neft, həm də təbii qaz emalı və istifadəsi nəticəsində yaranan təhlükəli tullantıların həcmində artma müşahidə edilmişdir. Son 20 ildə təhlükəli istehsalat tullantılarının həcmi 5 dəfə artıb.

İşlənmiş qazın təmizlənməsi üçün tətbiq edilən texnologiya və avadanlıqlar köhnəldiyinə və ya ümumiyyətlə olmadığına görə, neft və qaz sənayesi kükürd, karbon və azot oksidləri ilə havanı çirkləndirən əsas mənbədir. Tullantılar əsas etibarılə qızdırıcılarda yandırılan yanacaqdan əmələ gəlir. Bu baxımdan neftayırma zavodlarının müasirləşdirilməsinə ehtiyac var. Son dövrlərdə müasir avadanlığın quraşdırılması bu sahədə tullantıların həcminin azalmasına təsir göstərmişdir. Zavod və fabriklərin, (xüsusilə də köhnə avadanlıqlardan istifadə edənlərin) şəhər ətrafına çıxarılması, sənaye müəssisələrindəki qaz-toz tutucularının tam gücü ilə işləməsi, nəqliyyat vasitələrinin mühərriklərinin katalitik qaz neytralizatorları ilə təmin edilməsi, təmiz yanacaq növlərinə keçirilməsi atmosferə atılan zərərli maddələrin həcminin xeyli azalmasına kömək göstərə bilər.

Ölkənin mövcud energetika sisteminin təqribən 80%-i mazut və təbii qazla işləyən istilik enerjisi stansiyalarının payına düşür. Lakin Sovet dövründə yaradılmış energetika infrastrukturu köhnəldiyindən hazırda qənaətbəxş vəziyyətdə deyildir. Belə ki, generatorların və qazanxanaların təxminən yarısı 50 ildən artıqdır ki istismar olunur. Bunun nəticəsində yanacaq sərfi artmış, istilikyaratma qabiliyyəti aşağı düşmüş və tullantıların miqdarı müvafiq olaraq artmışdır.

Azərbaycanda su mənbələrinin azlığı həm əhalinin fərdi istifadəsində, həm də kənd təsərrüfatının su ilə təchizatında ciddi problemlər yaradır. Burada problem yalnız su mənbələrinin azlığı ilə məhdudlaşmır. Eyni zamanda, suyun istifadəsində israfçılıq və su təchizatı infrastrukturunun texniki vəziyyətinin qənaətbəxş olmaması ilə bağlı problemlər də mövcuddur.

Əhalinin su təchizatı ilə bağlı digər məsələ suyun keyfiyyətidir. ETSN-nin keçirdiyi monitorinqin nəticələrinə əsasən, su hövzələrinin çirkləndirilməsi üzrə tədqiq olunmuş hər iki müəssisədən birində atılan tullantılar icazə verilən normadan artıqdır.

Azərbaycan Respublikası əhalisinin təxminən yarısının su təchizatı Kür çayı ilə bağlıdır və Azərbaycana daxil olan suyun əksər hissəsi Gürcüstandan və Ermənistandan keçir. Gürcüstanın və Ermənistanın şəhərlərindən təmizlənməmiş çirkli suların Kür çayına axıdılması onun hidrokimyəvi rejiminə və suyun keyfiyyətinə mənfi təsir göstərir. Bu baxımdan, problemin regional səviyyədə həll edilməsi və beynəlxalq təşkilatlar vasitəsilə həm Ermənistan ərazisindən Kür və Araz çaylarına (ildə 350 mln. m3), həm də Gürcüstan ərazisindən Kür çayına (ildə 320 mln. m3) axıdılan çirkli suların təmizlənməsinə ehtiyac vardır.



Mövcud sənaye müəssisələrində istifadə olunan köhnəlmiş istehsal avadanlıqları ətraf mühiti çirkləndirməkdə davam edir və bəzi yerlərdə toplanmış tullantılar (xüsusilə də təhlükəli tullantılar), insanların sağlamlığı və ətraf mühit üçün böyük təhlükə yaradır. İri yaşayış məntəqələrində, xüsusilə də sənaye mərkəzlərində, məişət tullantılarının daşınması və yerləşdirilməsi işi lazımi səviyyədə təşkil olunmadığından şəhər kənarları qanunsuz olaraq illərlə yığılmış tullantı poliqonlarına çevrilib ki, bu da ətraf mühitin çirkləndirilməsinə və xəstəlik mənbələrinin yaranmasına səbəb olur.

Bu problemlərin həll edilməsi üçün həyata keçirilən proqramlarda aşağıdakılar nəzərdə tutulur;

- meşə ehtiyatlarının davamlı idarə olunması;
- su ehtiyatlarının davamlı idarə olunması;
- torpaq ehtiyatlarının davamlı idarə olunması və səhralaşma proseslərinin qarşısının alınması;
- biomüxtəlifliyin davamlı idarə olunması;
- atmosfer havasının davamlı idarə olunması;
- alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi;
- tullantıların kompleks idarə olunması;
- dağ və sahilyanı ekosistemlərin kompleks idarə olunması;
- ətraf mühitin idarə olunmasına dair normativ hüquqi bazanın, monitorinq sistemlərinin və resurslarının təkmilləşdirilməsi;
- ekoloji maarifləndirmənin və məlumatlandırmanın gücləndirilməsi.

Ölkə ərazisində yeni meşə sahələrinin salınması nəzərdə tutulur. Eyni zamanda, meşə landşaftı əsasında ekoturizm və rekreasiya mərkəzləri yaradılacaq.

Xəzər dənizi, çay və digər su hövzələri sahillərində yerləşən yaşayış məntəqələri, sənaye, kənd təsərrüfatı və istirahət-turizm obyektləri tərəfindən suların çirklənməsinin qarşısının alınması üçün işlər həyata keçiriləcək. Baş kollektorlarda toplanan drenaj sularının təkrar istifadəsi məqsədilə onların tədqiqi aparılacaq və təkrar istifadə olunmasına dair təkliflər hazırlanacaqdır. Mövcud su təchizatı obyektlərinin və kanalizasiya sistemlərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə qabaqcıl texnologiyaları tətbiq etməklə respublika ərazisində bərpa işləri həyata keçiriləcəkdir.

Bununla yanaşı su ehtiyatlarından səmərəli istifadə edilməsi və onların çirklənmədən qorunması işləri təkmilləşdiriləcək. Torpaq ehtiyatlarının idarə olunması və səhralaşma proseslərinin qarşısının alınması istiqamətində səhralaşma ilə mübarizə üzrə işlər davam etdiriləcək. Torpaq resurslarından davamlı istifadənin stimullaşdırılması, eləcə də torpaqların münbitliyinin qorunması və artırılması, həmçinin onların su və külək eroziyasına məruz qalmasının qarşısının alınmasına dair tədbirlər həyata keçiriləcəkdir.

Biomüxtəlifliyin davamlı idarə olunması istiqamətində su, bioloji ehtiyatların artımı ilə məşğul olan müəssisələrin istehsal gücü artırılacaq, mövcud qorunan ərazilərin sahəsi genişləndiriləcək, habelə ekoturizmin inkişaf etdirilməsi məqsədilə zəruri sosial infrastruktur yaradılacaqdır. Eyni zamanda, biomüxtəlifliyin davamlı inkişafını təmin edən tingliklər, meşə heyvanlarının və quşların artırılması üçün yeni bioloji mərkəzlər yaradılacaqdır.

Atmosfer havasının davamlı idarə olunması istiqamətində atmosferə atılan istixana qazlarının miqdarının azaldılması və iqlim dəyişmələrinin ekosistemlərə və iqtisadiyyata mənfi təsirinin azaldılması işləri həyata keçiriləcək. Həmçinin istehsal müəssisələri tərəfindən atmosferə işlənmiş qaz və karbon emissiyasının səviyyəsinin azaldılması məqsədilə həmin istehsal müəssisələrinə maliyyə yardımı göstərilməsi nəzərdə tutulur.

Alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində üzvi maddəli tullantılardan istilik və gübrə alınması üzrə texnologiyaların işlənilməsi, günəş və külək enerjisi ehtiyatlarından istifadə imkanlarının tədqiqi məqsədilə yeni enerji stansiyaları inşa ediləcək.

Tullantıların kompleks idarə olunması istiqamətində əmələ gələn bərk sənaye, kənd təsərrüfatı və məişət tullantılarının təkrar xammal, enerjidaşıyıcısı, gübrə, tikinti və kompozit materiallar kimi utilizasiya edilməsi, həmçinin iri yaşayış məntəqələri üçün ekoloji və sanitar tələblərə cavab verən yeni tullantı poliqonlarının yaradılması işləri davam etdiriləcək. Yeni tullantı emalı zavodları tikilib istifadəyə veriləcək.

Ekoloji maarifləndirmənin və məlumatlandırmanın gücləndirilməsi üçün təbii ehtiyatlardan səmərəli istifadə üzrə təbliğat materialları hazırlanaraq əhali arasında yayılması təşkil ediləcək.

***Elçin Bayramlı***

# 11-ci dəfə Braziliya çempionu oldular

Futbol üzrə Braziliya çempionatında bu mövsümün qalibi müəyyənləşib. Qol.az xəbər verir ki, "Palmeyros" bu mövsümün sonunun başa çatmasına 3 tur qalmış çempionluğu rəsmiləşdirib. Komanda Braziliya A Seriyasının 35-ci turunun matçında " Fortaleza "nı məğlub edərək(4:0) buna nail olub.




# Vladimir Vinokur:
## "Müslüm Maqomayev həyatımı xilas etdi"



**Tanınmış komediya ustası Vladimir Vinokur əfsanəvi Müslüm Maqomayevin yaxın dostlarından biri idi, sənətçilər birlikdə qastrol səfərlərinə çıxır, bir-birlərinə dəstək olur, sevinclərini, kədərlərini bölüşürdülər. Bir dəfə Maqomayev Bakıda zəlzələ zamanı dostunu xilas etmişdi... Komediya ustası "Moskva-Baku" portalına müsahibəsində təfərrüatları danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**

*- Dostunuz Müslüm Maqomayevi "təvazökar dahi" adlandırmısınız, bu, özünü nədə göstərirdi?*

- Müslüm çox ağıllı insan idi. Heç vaxt onun səsini qaldırdığını eşitməmişəm, şortik və cins şalvarda görməmişəm. Oteldə səhər yeməyinə belə kostyumda gedə bilərdi. Böyüklərinə hörmət edirdi... Müslüm xoş xasiyyətli insan idi. Elə oldu ki, gedəndən sonra belə demək düz olmazdı, amma istedad və insani keyfiyyətlər baxımından onun tayı bərabəri olan adam tapılmadı.

*- Bir dəfə Bakıda Maqomayev sizi sözün əsl mənasında xilas edib...*

- Bakıya qastrol səfərinə gəldim, konsertim oldu, Tamara və Müslümlə görüşdükdən sonra oturduq... məni elə mehmanxanadaca sınaqdan keçirdilər. Səhər oyandım ki, yatağım balkona tərəf sürüşür. Dərhal düşündüm: "Bəlkə çox içmişəm!" Birdən telefon zəng çalır, Müslüm soruşur: "Volodya, indi nə edirsən?" Dedim ki, çarpayıda balkona tərəf sürüşürəm. (Gülümsəyir) Müslüm mənə dedi ki, narahat olma, Bakıda zəlzələ olub. Mənə dedi ki, hamama gir, orada dəmir-beton blok var, məhz belə hallar üçün. Müslümün dediyi kimi etdim. Bir müddət sonra yenidən zəng etdi: "Bitdi, çıxa bilərsən!" Otelin zəlzələ vaxtı küçəyə qaçmayan digər qonaqları arasında mən də var idim, heç vaxt belə hadisələrdə olmamışam, ona görə də nə baş verdiyini dərhal başa düşməmişdim.

*- 80-ci illərin sonunda sizi birgə qastrol səfərinə dəvət edən sənətçilərdən biri də Maqomayev olub.*

- Bəli! Həyatımda ilk dəfə bir müsəlmanla dost olmaq, ünsiyyət qurmaq mənə qismət oldu, əvvəlcə sədaqətli tamaşaçı oldum, sonra böyük müsəlman sənətkar ilə ABŞ-da qastrol səfərində olduq. Tam bir ay qastrolda olduq, Müslim ayrı, mən ayrı çıxışlar etdik.

*- Müslüm Maqomayevin 80 illik yubileyi münasibətilə keçirilən konsertdə "Toy" mahnısını ifa etdiniz, niyə məhz bu bəstəni səsləndirdiniz?*

- Bu mahnı Müslümün repertuarından ən çox sevilən mahnılardan biridir. Mən tez-tez konsertlərdə alternativ "Mavi əbədiyyət" mahnısını ifa edirəm, amma gənc həmkarlarımla yarışmamaq qərarına gəldim. ( Gülür ) Emin Ağalarov uzun illərdir bu mahnını gözəl ifa edir.

*- Gələn il 75 yaşınız tamam olacaq, bu gözəlt arixm ünasibətilək onsertp lanlaşdırılır?*

- Əlbəttə! Mən işləyirəm, çox gözəl komandam var. Ölkənin hər yerinə və ölkə xaricinə səyahət edirik. Babanın tezliklə 75 yaşı olacağını zarafatla desəm də, özümü gümrah hiss edirəm. Hətta nəvəm Fedya mənə Vovka deyir, heç vaxt "baba" demir. Fedya şahid olub ki, mən daim hərəkətdə olan şən bir insanam. Birlikdə karate məşqləri edirik, qaçırıq, döyüşürük. (gülür)

*Tərcümə - Elçin Bayramlı*

## Bakıda uşaq itkin düşdü

Bakıda 13 yaşlı yeniyetmə itkin düşüb. SİA xəbər verir ki, hadisə oktyabrın 29-da Xətai rayonu, NZS qəsəbəsində qeydə alınıb. Belə ki, 2009-cu il təvəllüdlü Mustafayev Hüseyn Vüsal oğlu tanışının evindən çıxıb və bir daha geri qayıtmayıb. Faktla bağlı Xətai Rayon Polis Şöbəsində araşdırma aparılır.

## Bir gündə yol qəzalarında 4 nəfər ölüb

Ötən gün Azərbaycanda yol qəzalarında 4 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, noyabrın 2-də respublikanın avtomobil yollarında ölümlə nəticələnən 4 yol-nəqliyyat hadisəsi baş qeydə alınıb, nəticədə 4 nəfər ölüb.



# Xaricdə istirahət etmək üçün nə qədər büdcə lazımdır?

EKSPERT AÇIQLADI



Bildiyimiz kimi, ilin sonuna yaxınlaşdıqca istirahət üçün yeni yerlərin axtarışında oluruq. Vətəndaşlarımızın bəziləri ölkə daxilində bəziləri isə ölkə xaricində istirahət etməyə üstünlük verir. Yerli turistlərimizin xarici səfərlərində üstünlük etdiyi ölkələr siyahısında ilk başda qardaş Türkiyə, Dubay və digər Avropa ölkələri gəlir. Daha öncədən Rusiya və Ukraynayada üstünlük edən yerli turistlərimiz bu iki dövlət arasında olan münaqişələrə görə artıq bu ölkələrdə istirahət etməyə üstünlük vermirlər. Bu sözləri SİA-ya açıqlamasında turizm-eksperti Rəhman Quliyev deyib. Onun sözlərinə görə, "Bu münaqişəyə görə vətəndaşlarımız istirahət üçün Avropa ölkələrinə gedirlər və bununda nəticəsi olaraq avia reyslərdə sıxlıq nəzərə çarpır. Bunun da nəticəsi olaraq yük Türk Hava Yollarının üzərinə düşür, sıxlıq müşahidə olunur və qiymətlərin də baha olmasına gətirib çıxarır. Əlbəttə ki, biletin bahalaşması xarici turların əsas tərkib hissəsidir, tur paket təşkil olunanda hər hansı bir yerli turist üçün demək olar ki, yarı qiymətindən çoxunu biletlər təşkil edir. Bu baxımdan da biletlərin bahalılığı turun da baha olmasına gətirib çıxarır. Amma buna baxmayaraq vətəndaşlarımız ildə bir neçə dəfə əlamətdar günlərdə öz səyahətlərini maraqlı, şən, yaddaqalan keçirmək istəyirlər və bu baxımdan həmin bahalılığı nəzərə alıb daha öncədən rezervasiya etməkləri tövsiyə olunur. Artıq demək olar ki, yeni ilə 2 aydan az bir vaxt qalıb və hesab edirəm ki, yaxın günlərdə qiymətlər daha da qalxacaq, çünki vətəndaşların getməsi ilə bağlı sıxlıq yaranır və növbəti ilin yay ayı üçün də vətəndaşlarımız erkən rezervasiyalara başlayıb. Bu erkən rezervasiyaların edilməsi vətəndaşlarımız üçün də bir o qədər sərfəlidir ki, qiymət baxımından da bir qədər büdcələrinə qənaət etmiş olurlar."



*Ziya Hikmət oğlu*

**ELAN**

Sumqayıt şəhər 8 saylı orta məktəb tərəfindən 2001 ci ildə Məmmədov Elnur Bəymməmməd oğluna verilmiş attestat (A № 514613) itdiyi üçün etibarsız sayılır

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**